QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 019 (5739) **30 yanvar** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## İlham Əliyev: "Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır"

*Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib*

Səh 2




Dmitri Savelyev: "Bu məsələdə Azərbaycanın rəhbər sarıdan çox bəxti gətirib"



5

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının İdarə Heyəti ölkəmizdəki diplomatik korpusun nümayəndələrinə təqdim edilib



5

Şəhid anası: "Hərbi qulluqçuların ailə üzvləri dövlətin diqqət və qayğısından məmnundurlar"



9

Azərbaycan Prezidentindən xalqa xidmətin növbəti nümunəsi



9

Əli Kərimlinin ölkədə qarşıdurma yaratmaq planı ifşa olundu!



6

Paşinyanın əleyhdarları fəallaşıb



12

9

"Görüş düşmənə qarşı mübarizə əzminin güclənməsinə kömək edir"



11

İkili standartlar hələ də tətbiq olunur



16

Həbib Nurmaqomedov və Konor Makqreqor arasında yeni razılaşma



# İlham Əliyev: “Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır”

*Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib*




***Yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib. Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib. Prezident İlham Əliyev giriş nitqində diqqətə çatdırıb ki, regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı artıqlaması ilə yerinə yetirilib. Dövlət başçısı qeyd edib ki, son beş il ərzində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olunub, üçüncü proqramın çox böyük əhəmiyyəti var:***

“Bildiyiniz kimi, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi mənim 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyim vədlərimdən biri idi. O vaxt demişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, ilk növbədə, regionların inkişafı ilə məşğul olacağam, bölgələrdə olan problemlərin həlli işində öz səylərimi əsirgəməyəcəyəm. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olundu və bu gün müzakirə etdiyimiz proqram sayca üçüncüdür.

Beləliklə, görülmüş işlər haqqında danışanda əlbəttə ki, biz son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salmalıyıq. Bu işlər həm real həyatda, həm rəqəmlərdə, həm də dəyişən, abadlaşan şəhərlərdə özünü göstərir. Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. İxracımız 4,7 dəfə, valyuta ehtiyatlarımız 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Yəni, bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, biz öz valyuta ehtiyatlarımızı 24 dəfə artıra bilmişik. Bu, bizə imkan verir ki, gələcəyə çox böyük ümidlərlə baxaq. Azərbaycan iqtisadiyyatı bu gün dayanıqlı iqtisadiyyatdır.

## “Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb”



Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə vəsaitin, sərmayənin yatırılmasına gətirib çıxardı. 15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir. Azərbaycanda mövcud olan sərmayə iqlimi xarici investorları həvəsləndirir.

Bir faktı da diqqətinizə çatdırmaq istəyirəm. İlk dəfə Azərbaycan Dünya Bankının “Doing Business” hesabatında 2006-cı ildə qeyd olundu və o vaxt Azərbaycan 98-ci yerdə qərarlaşdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir. Yəni, bu, deməyə əsas verir ki, bundan sonra da həm daxili, həm xarici investorlar Azərbaycana böyük həcmdə sərmayə qoyacaqlar. Beləliklə, bu sərmayə imkan verəcək ki, bundan sonra da iş yerləri, yeni müəssisələr yaradılsın və ölkəmiz inamla inkişaf etsin.

Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılmışdır. Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Ancaq, əlbəttə, biz bundan sonra da işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun. Yeni iş yerlərinin yaradılması regionların sosial-iqtisadi inkişafı proqramlarının tərkib hissəsi idi və qeyd etdiyim kimi, 2 milyon iş yeri yaradılıb. Bu iş yerlərinin böyük hissəsi bölgələrin payına düşür. Kənd təsərrüfatı 1,7 dəfə artıb və əminəm ki, bundan sonra artım daha sürətli olacaq.

Bir sözlə, bizim bütün iqtisadi göstəricilərimiz deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla, inamla inkişaf edib. Artan iqtisadi imkanlarımız bizə şərait yaratdı ki, sosial məsələlərə də çox böyük diqqət yetirək. Bir neçə rəqəmi səsləndirmək istərdim. Son 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb. Son 15 ildə 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 olimpiya mərkəzi yaradılmışdır. Bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlüdür və əldə edilmiş gəlirləri biz, ilk növbədə, sosial sahələrə yönəldirik.”

Dövlət başçısı qeyd edib ki, məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olub, bu gün də belədir. Son illər ərzində yüzdən çox köçkün şəhərciyi tikilib, köçkünlərə təqdim edilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilib və bu proses davam etdirilir. Bu kateqoriyadan olan vətəndaşlar evlərlə təmin olunacaqlar: “Yəni, Azərbaycan sosial sahəyə çox böyük diqqət göstərən ölkədir. Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir.”

**Ardı Səh. 3**

# İlham Əliyev: "Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır"

## *Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib*

**Əvvəli Səh. 2**

Prezident İlham Əliyev qeyd edib ki, son 15 il ərzində dünyada müxtəlif proseslər gedib, dünya çox dəyişib. On beş il əvvəl vəziyyət tam fərqli idi, bu gün isə risklər, təhdidlər, münaqişə, müharibə ocaqları artır və bu meyil əfsuslar olsun ki, güclənir. Diqqətə çatdırılıb ki, bizim bölgəmizdə, Yaxın Şərqdə, MDB məkanında, yaşadığımız regionda çox təhlükəli proseslər gedirdi və bu gün də gedir. Bu proseslər böyük fəlakətlərə gətirib çıxarıb. Milyonlarla insan müharibələrdən əziyyət çəkir. Milyonlarla insan həlak olub, yaralanıb, itkin düşüb, qaçqın-köçkün vəziyyətinə düşüb. Bəzi ölkələrin əksər hissələri tamamilə dağıdılıb. Bu, böyük humanitar fəlakətdir:





"Bütün bu mənfi mənzərə fonunda bizim hökumət öz inamlı dinamik inkişaf strategiyasını icra edərək ölkəmizi irəliyə aparır. Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur.

Azərbaycanda aparılan iqtisadi, siyasi islahatlar, ölkəmizin güclənməsi bizə dünyada gedən riskli proseslərdən özümüzü qorumağa imkan yaratdı. Bir daha demək istəyirəm, bizim xarici siyasətimizin əsas məqsədi ondan ibarətdir ki, xaricdən gələn mümkün risklərin idarə olunmasına, azaldılmasına, aradan qaldırılmasına imkan versin. Biz buna nail oluruq. Son 15 il ərzində Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşayır. Azərbaycan xalqı rahat yaşayır, qurur, yaradır. Hesab edirəm ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər."

Dövlət başçısı bildirib ki, ölkəmiz bu illər ərzində kosmik dövlətə çevrilib. Azərbaycan nadir ölkələrdəndir ki, kosmik kluba daxil olub:

"Bu, həm innovasiyadır, həm biznesdir, həm də müasirlikdir. İnnovasiyalara gəldikdə, bu gün dünyada Azərbaycan məhsulu kimi tanınan "ASAN xidmət" brendi vardır. Bunu biz yaratmışıq, bizim daxili intellektual məhsulumuzdur və iradəmizin ifadəsidir. "ASAN xidmət" bu gün bir neçə ölkədə fəaliyyət göstərir və bu sistemi tətbiq edən ölkələrin sayı artmaqdadır. Ölkəmizdə on beş "ASAN xidmət" mərkəzi yaradılıb. Bu ilin

> "Bizim bütün iqtisadi göstəricilərimiz deməyə əsas verir ki, Azərbaycan son 15 il ərzində çox uğurla, inamla inkişaf edib"



sonuna qədər onların sayı 20-yə çatacaq. Bu mərkəzlərə 26 milyondan çox müraciət olunub. Əhali tərəfindən bəyənmə əmsalı təxminən 100 faizdir. "ASAN xidmət"də iki yüzdən çox xidmət göstərilir, tam şəffaf və heç bir pozuntusuz. Bu sahə, bildiyiniz kimi, həmişə böyük narahatlıq doğururdu. Vətəndaşlar haqlı olaraq şikayət edirdilər. İndi isə şikayətlər yoxdur, "ASAN xidmət"in yaradılması və uğurlu fəaliyyəti bizim siyasətimizi əks etdirir. Azərbaycanda hər şey şəffaf olmalıdır, hər şey qanun çərçivəsində olmalıdır. Bu, bir daha onu göstərir ki, vətəndaşlara xidmət bizim siyasətimizin əsas məsələlərindən biridir."

X X X

Sonra çıxışlar olub. Neftçala Sənaye Məhəlləsində "Xəzər" avtomobil zavodunun



direktoru Emin Axundov, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, "Naxçıvan Bağları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Elçin Bağırov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, Ağstafa rayonundakı "Saloğlu" mebel firmasının direktoru Tacəddin Mustafayev, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, İmişli rayonundakı "Muğan Aqroservis" iri toxumçuluq təsərrüfatının direktoru Rəcəb Orucov, Qusar Rayon İcra Hakimiyyətinin başçısı Şair Alxasov, "Hacıqabul Quşçuluq" MMC-nin direktoru Nemət Babaşov çıxış edərək bildiriblər ki, Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının uğurlu icrası bütün bölgələrdə iqtisadiyyatın dirçəldilməsinə, əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə və onların sosial problemlərinin həllinə güclü təkan verib.

Dövlətimizin başçısı konfransda yekun nitq söyləyib. Prezident İlham Əliyev yekun nitqində qeyd edib ki, Proqramların uğurlu icrası deməyə əsas verir ki, onların qəbulu tam məntiqə uyğundur. İqtisadi göstəricilər, bölgələrdə gedən quruculuq-abadlıq işləri bunun əyani sübutudur: "Ancaq hələ də həll olunmamış məsələlər var. Hələ də elə məsələlər var ki, onların həlli üçün imkanlar olmayıb, yaxud da onların növbəsi gəlməyib. Biz isə görülmüş işlərlə kifayətlənməməliyik, daim qabağa baxmalıyıq. Baxmalıyıq ki, harada nə çatışmır, harada hansı məsələ öz həllini tapmalıdır.

Prinsip etibarilə, infrastrukturla bağlı bütün əsas məsələlər öz həllini tapıb. Ancaq bu proses davam etdiriləcək. Elektrik enerjisi ilə bağlı, qeyd etdiyim kimi, biz indi özümüzü tam təmin edirik, böyük həcmdə ixrac edirik. Ancaq yeni elektrik stansiyalarının tikilməsinə ehtiyac var. Çünki bizim sənaye potensialımızın, əhalimizin artımı, kənd təsərrüfatının inkişafı, böyük sənaye klasterlərinin yaradılması tələb edir ki, elektrik enerjisinin istehsalı artsın. Bu il biz Bakıda böyük elektrik stansiyasının açılışını planlaşdırırıq. 400 meqavat gücündə olan "Şimal 2" stansiyasının açılışı gözlənilir. Eyni



zamanda, Bakı şəhərində yeni, 300, 350, bəlkə də 400 meqavat gücündə stansiyanın tikintisi ilə bağlı işlər aparılmışdır. İndi dəqiqləşmələr gedir və stansiyanın tikintisi bizim enerji potensialımızı daha da möhkəmləndirəcək. Bununla paralel olaraq, mövcud stansiyalarda bərpa və təmir işləri aparılaraq onların potensialını böyük dərəcədə artıra bilərik. İlkin hesablamalar göstərir ki, biz təqribən 500 meqavat əlavə güc əldə edə bilərik.

Ölkədə qazlaşdırmanın səviyyəsi 95 faizdir. Ancaq, əlbəttə, bu, o demək deyil ki, bu, bizi qane edir. Elə kəndlər var ki, oraya hələ də qaz çəkilməyib. Ona görə bu proses davam etdiriləcək. Baxmayaraq ki, dünya miqyasında bu qədər qazlaşdırma aparan ölkələr o qədər də çox deyil. Yəni, biz son illər ərzində qazlaşdırma ilə bağlı əsas problemləri həll etdik. Əsas məsələ indi bu prosesi davam etdirmək və qazın keyfiyyətini artırmaqdır. Bəzi hallarda fasilələr baş verir, bəzi hallarda qaz lazımi həcmdə gəlmir. Bu məsələ daim diqqət mərkəzində olmalıdır ki, burada heç bir çatışmazlıq olmasın.

İçməli su layihələri davam etdirilir. Giriş sözümdə qeyd etdiyim kimi, təminat 70 faizə çatıb. Hazırda 38 şəhərdə içməli su layihələrinin icrası başa çatıb, bu il 5 şəhərdə başa çatacaqdır və 12 şəhərdə işlər artıq başlanıb, gedir və bir neçə şəhərdə hələ ki, başlanmayıb. Bu məsələlər daim gündəlikdədir və qəbul ediləcək dördüncü proqramda da öz əksini tapacaq."

**Ardı Səh. 4**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 yanvar 2019-cu il

# İlham Əliyev: “Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır”

## *Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans keçirilib*

**Əvvəli Səh. 3**

Prezident qeyd edib ki, sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək. Baxmayaraq ki, 3272 məktəb tikilib və təmir edilib. Bu məktəblər mövcud məktəb fondunun 73 faizi deməkdir. Ancaq təmirə ehtiyacı olan məktəblər var və bu işlər də növbəti dövlət proqramında nəzərdə tutulacaq. Həmçinin xəstəxanaların, Olimpiya komplekslərinin tikintisi davam etdiriləcək. Təkcə bu il üç Olimpiya Kompleksinin açılışı gözlənilir. Bu da bölgələrdə idmanın



“Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3 dəfə artmışdır. Bir daha demək istəyirəm, bu, dünya miqyasında rekord göstəricidir”



inkişafına xidmət göstərir:

“Bildiyiniz kimi, hər il 5 milyondan çox insan pulsuz tibbi müayinədən keçir. Bu da bizim təşəbbüsümüzdür, çox müsbət təşəbbüsdür. Hazırda bizdə vətəndaşların tibbi müayinədən keçmələri üçün hər bir yerdə müasir avadanlıq quraşdırılmış xəstəxanalar var. Bu da çox ciddi sosial layihədir və Azərbaycan bu sahədə də gözəl nümunə göstərir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Keçən il 5800 köçkün üçün evlər tikilibdir, o cümlədən 1000 ailə üçün özəl sektor evlər tikib. Mən bu təşəbbüsü alqışlayıram. Bu il bu proses davam etdiriləcək. İlkin hesablamalara görə, ən azı 5000 ailə üçün evlər tikiləcək, o cümlədən yenə də özəl sektorun çox ciddi payı ilə.

Şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin problemləri də həll olunur. Keçən il 626 şəhid və Qarabağ müharibəsi əlilinin ailəsinə evlər verildi. Bu il isə 800 ailəyə ev veriləcək. Növbəti illərdə bu proses davam etdiriləcək ki, bütün şəhid ailələri, Qarabağ müharibəsi əlilləri evlərlə təmin olunsunlar. Bu günə qədər bu qəbildən olan 6650 ailə ev alıb.

Keçən il 118 min yeni iş yeri yaradılmışdır. Bu, yaxşı rəqəmdir. İş yerlərinin yaradılması daimi proses olmalıdır və bu sahədə əlbəttə ki, özəl sektor əsas rol oynamalıdır. Dövlətin dəstəyi ilə verilən hər bir kreditin tərkibində mütləq məruzə olunanda nə qədər iş yeri yaradılacaq məsələsi də vardır. Məşğulluğun artırılması çox ciddi məsələdir. Bəzi ölkələrdə əhali artmır, bəzi ölkələrdə əhali azalır, Azərbaycanda isə əhali artır. Mən qeyd etdim ki, son 15 il ərzində əhalimizin sayı 1,6 milyon nəfər artmışdır. Bu, əlbəttə ki, bizdən çox ciddi iş tələb edir. Bir daha demək istəyirəm ki, iş yerlərinin yaradılması prioritet məsələlərdən biridir. O bölgələrdə ki, işsizlik var, biz o bölgələrdə işsizliklə mübarizə aparmaq üçün ictimai işlər açmışıq. Bir neçə ildir ki, bu təşəbbüs reallaşır və ictimai işlərdə minlərlə insan işləyir və əməkhaqqı alır.

Əlbəttə ki, son illərdə bir çox müəssisələr yaradılır və orada iş yerləri açılır. Sahibkarlara tövsiyəm ondan ibarətdir ki, iş yerlərini ixtisar etməsinlər. Çünki bu gün dünyada ümumi meyil ondan ibarətdir ki, daha çox texnologiyalara üstünlük verilir, elmi-texniki tərəqqi yeni texnologiyalar ortaya çıxarır, robotlar insanları əvəzləyir, bütün bunlar reallıqdır. Biz bu reallıqla hesablaşmalıyıq. Ancaq, eyni zamanda, biz Azərbaycanda mütləq iş yerlərini qorumalıyıq - həm dövlət qurumlarında, həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları, - bütün dövlət qurumlarına artıq bildirilib, - iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində daha çox iş yerləri açmalıdır. Yenə də deyirəm, bu istiqamətdə proses müsbət gedir. Keçən il 118 min daimi iş yeri yaradılıb və təbii ki, bu, özəl sektorda yaradılmış iş yerləridir.

Bildiyiniz kimi, son illərdə Azərbaycana gələn turistlərin sayı getdikcə artır və bu, çox müsbət haldır. Keçən il gələn turistlərin sayı təqribən 6 faizə yaxın artmışdır. Keçən il ölkəmizə əvvəlki illərdən daha çox - 2 milyon 850 min turist gəlmişdir. Aparılan hesablamalara görə, bu turistlər ölkəmizdə



2 milyard dollara yaxın pul xərcləmişlər. Bu, belə demək olarsa, əlavə 2 milyard dollar ixrac deməkdir. Artıq bu rəqəm göstərir ki, turizmin nə qədər böyük əhəmiyyəti var. Bu pullar xidmət sektoruna gedir, vətəndaşlar, sahibkarlar bundan faydalanırlar. Yəni, bu pullar birbaşa o şirkətlərə gedir ki, onlar bölgələrdə turistlərə müxtəlif xidmətlər göstərirlər. Çünki turistlərin böyük hissəsi artıq Azərbaycanın bölgələrinə gedir. Bütün lazımi şərait yaradılır və turizm sənayesi Azərbaycanda çox geniş imkanlara malik olmalıdır. Bunun üçün bütün lazımi ilkin şərtlər var. Azərbaycanda təhlükəsizlik, sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. İqlimimiz də çox gözəldir və müxtəlif iqlim tipləri var. Müasir infrastruktur yaradılıb, 6 beynəlxalq aeroport, müasir yollar, dəmir yolları, otellər, gözəl təbiət, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm inkişaf edir. Misal üçün, Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağ müalicəvi mərkəzinə turistlər çox gəlir, Qalaaltıya müalicəyə gəlirlər. Tarixi abidələrimiz kifayət qədər çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, turizm sənayesi Azərbaycanda çox sürətlə inkişaf edəcək.

“15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyuldu və bu sərmayənin yarısı xarici investisiyadır. Yəni, xarici investorlar üçün Azərbaycan çox cəlbedici ölkədir”

Bütövlükdə isə deməliyəm ki, ilkin hesablamalara görə, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrası üçün ən azı 17 milyard manatdan çox vəsait nəzərdə tutulur. Hesablanıb ki, bunun 4,6 milyard manatı özəl sektor tərəfindən indi icra edilən və hazırlığı gedən layihələrə investisiya şəklində qoyulacaq. Dövlət tərəfindən təxminən 13 milyard manata yaxın kapital qoyuluşu gözlənilir. Ancaq əlbəttə ki, bu, ilkin rəqəmdir. Mən tam əminəm ki, bu rəqəm daha böyük olacaq. Çünki əvvəlki üç proqramın icrası bunu göstərir. Çünki üç proqramın hər biri artıqlaması ilə icra edilmişdir. Əminəm ki, dördüncü proqram da artıqlaması ilə icra ediləcək. Nəzərə almalıyıq ki, indi bizdə investisiya iqlimi daha əlverişlidir. Mən giriş sözümdə qeyd etdim ki, Dünya Bankı “Doing Business” hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Beləliklə, xarici investisiyalar bu rəqəmdə öz əksini tapmır. Hələ xarici investisiyalar qoyulacaq. Ona görə bu, çox böyük müvəffəqiyyətdir və bu investisiyalar hesabına Azərbaycan bundan sonra da uğurla, inamla inkişaf edəcək. Mən tam əminəm ki, bundan sonra da ölkəmiz ancaq inkişaf, tərəqqi və qələbələr yolu ilə gedəcəkdir.”

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında 2019?2021-ci illər üçün ticarət-iqtisadi Əməkdaşlıq Proqramının təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi üçün onun hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Sənan Muxtarova “Əməkdar hüquqşünas” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, gömrük orqanlarında səmərəli fəaliyyətinə görə Sənan Əli oğlu Muxtarova “Əməkdar hüquqşünas” fəxri adı verilsin.

# Dmitri Savelyev: "Bu məsələdə Azərbaycanın rəhbər sarıdan çox bəxti gətirib"

***İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunun işi başa çatıb. Dünyanın siyasi və işgüzar elitası nümayəndələrinin builki görüşündə ən nəzərəçarpan iştirakçılardan biri Azərbaycan Prezidenti İlham Əliyev olub. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Dmitri Savelyev AZƏRTAC-a müsahibəsində dünya birliyində Azərbaycanın artan rolu və bu artımın Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığına təsiri barədə danışıb.***

*-Dmitri İvanoviç, Siz Davos iqtisadi forumunu necə səciyyələndirərdiniz?*

-İlin mühüm beynəlxalq hadisələrindən biri statusuna malik olan bu tədbir artıq yarım əsrə yaxındır ki, keçirilir. Bəzən Davos forumunu dünyanın beyin mərkəzi adlandırırlar, çünki praktiki olaraq bütün ölkələrdən Davosa toplaşan aparıcı siyasətçi və iqtisadçılar dünya iqtisadiyyatının yeni trendlərini müəyyən edir və kollektiv strategiyanı əlaqələndirirlər. Bu Foruma əliboş gəlmirlər, axı, dünya miqyaslı ideyaları və investisiya layihələrini məhz burada təqdim etmək olar. Bu sahədə inanılmaz rəqabət gedir və Dünya İqtisadi Forumunun səriştəli auditoriyasını nə iləsə maraqlandırmaq çox çətindir.

*-Siz Azərbaycanın bu Forumda iştirakını necə qiymətləndirirsiniz?*

-Prezident İlham Əliyev bu foruma hər il perspektivli layihələr və təkliflər portfeli ilə gəlir, həmin layihələr və təkliflər hər dəfə potensial investorların güclü marağına səbəb olur. Transmilli korporasiyaların bəzilərinin rəhbərləri hətta açıq etiraf edirlər ki, onlar Davosa məhz Azərbaycan lideri ilə görüşmək üçün gəliblər. Bunlar



quru sözlər deyil: Azərbaycan Prezidentinin Forum çərçivəsində iş cədvəlinin təhlil etsək görərik ki, İlham Heydər oğlu dörd gün ərzində iri biznes nümayəndələri və siyasi xadimlərlə onlarca görüş keçirib. Azərbaycan Prezidenti bu Forumdan ölkənin iqtisadi sahədə qazandığı bütün uğurları təqdim etmək mümkün olan bir məkan kimi bacarıqla istifadə edir. Axı, Azərbaycanın təcrübəsi energetika sahəsində əldə edilmiş gəlirləri rentabelli infrastruktur layihələrinə nə dərəcədə uğurla sərmayə qoymaq mümkün olduğunu göstərən parlaq nümunədir.

Azərbaycan öz coğrafi mövqeyindən səmərəli istifadə edərək ölkələri birləşdirən beynəlxalq hab missiyasını öz üzərinə götürüb. Respublika elektrik enerjisi istehsalına və qazlaşdırma səviyyəsinin artırılmasına (ölkədə bu göstərici 95 faizdir), yol tikintisinə (yolların keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yeri tutur), həmçinin "Şimal-Cənub" nəqliyyat dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və ya Ələt Beynəlxalq Ticarət Limanı kimi qlobal layihələrin həyata keçirilməsinə çox sanballı vəsait qoyur. Bütün bunlar son 15 ildə ölkəyə genişmiqyaslı - 250 milyard dollara yaxın sərmayə cəlb etməyə imkan verib. Dünya Bankının "Doing Business" hesabatında əks olunmuş məlumatlara görə, hazırda Azərbaycan iqtisadi inkişaf sürəti üzrə dünyada 25-ci yerdədir. Bir il ərzində respublika 32 bənd irəliləyib. Bu, rekord artımdır.

*-Sizin fikrinizcə, Azərbaycanın bu qədər sürətlə inkişaf etməsi neft-qaz gəlirlərindən bacarıqla istifadə edilməsindən başqa daha nəyin sayəsində mümkün olur?*

-İqtisadiyyata savadlı rəhbərlik edilməsə, təbiətin respublikaya bəxş etdiyi ehtiyatlar gərəksiz bir yük kimi qalardı. Bu məsələdə Azərbaycanın rəhbər sarıdan çox bəxti gətirib: Prezident İlham Əliyev vəziyyəti bir neçə gediş qabaqcadan hesablamağı bacarır, perspektivli layihələri və innovasiya ideyalarını dərhal hiss edir və qiymətləndirir. Bundan əlavə, o, diplomatiya istedadına malikdir, axı, Azərbaycan özünün bütün qonşuları ilə (əlbəttə, Ermənistan istisna olmaqla) əla münasibətlər yarada bilib. Bu ölçülüb-biçilmiş, çoxvektorlu siyasət həm də sanballı iqtisadi səmərə verir. Rusiya ilə tərəfdaşlıq buna əla nümunə ola bilər: burada mehriban qonşuluq münasibətləri genişmiqyaslı müştərək layihələrin əsası olub.

*-Xahiş edirəm, Azərbaycan Prezidentinin Davosda Rusiya nümayəndə heyətinin üzvləri ilə görüşlərinin yekunları barədə danışın.*

-Rusiya Azərbaycanın strateji tərəfdaşıdır. Forumun kuluarlarında Prezident İlham Əliyev Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkin ilə görüş keçirib. Azərbaycan lideri respublikanın ərazisində iri neft-qaz layihələrinin həyata keçirilməsi məsələsini dünyanın aparıcı neft şirkətlərinin rəhbərləri ilə müzakirə edib. Onların arasında Rusiyanın "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov da vardı. VTB Bankı Azərbaycanda çoxdan və səmərəli fəaliyyət göstərir. Prezident İlham Əliyev bu əməkdaşlığın perspektivləri barədə VTB Bankının prezidenti Andrey Kostinlə fikir mübadiləsi aparıb. Təkrar edirəm: bütün perspektivli və innovasiyalı layihələr azərbaycanlıları maraqlandırır, çünki respublikanın maliyyə sabitliyinin gücləndməsi rəqəmsal iqtisadiyyatın təməlini qoyur. Məsələn, Azərbaycan dəmir yolları boyunca çəkilən magistral optik-lifli rabitə xətləri Azərbaycanın Rusiya və digər qonşu dövlətlərlə davamlı genişzolaqlı rabitə imkanlarını formalaşdırır.

*-İqtisadiyyat sahəsində Rusiya-Azərbaycan münasibətlərinin cari vəziyyətini necə qiymətləndirirsiniz?*

-Bizim ölkələrimiz arasında münasibətlərə müəyyən hədd qoymaq çətindir, çünki iqtisadi əməkdaşlıq daim hərəkətdədir, inkişaf edir və genişlənir. Müxtəsər desək, təkcə 2018-ci ildə Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsinin həcmi 20 faiz artaraq, təqribən 2,5 milyard dollara çatıb. Bu göstərici onun sayəsində əldə edilib ki, biz qarşılıqlı kapital qoyuluşunu genişləndirməyə (bu gün kapital qoyuluşunun həcmi 5 milyard dollara yaxındır), sənaye sahəsində kooperasiyanı dərinləşdirməyə, habelə müştərək şirkətlərin və istehsalatların fəaliyyətini stimullaşdırmağa nail olmuşuq. Prezidentlər Vladimir Putin və İlham Əliyev arasında sentyabr ayında aparılmış danışıqların yekunlarına əsasən, Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığının üstün istiqamətlərini əks etdirən beş "yol xəritəsi" işlənib hazırlanıb. 2018-ci il dövlətlərimizin tərəfdaşlığı və ticari-iqtisadi münasibətlərin inkişafı baxımından xüsusilə uğurlu olub.

*-Siz əsas amillər kimi məhz hansı amilləri fərqləndirərdiniz?*

-Belə amillərdən biri Xəzər dənizinin Hüquqi Statusu barədə Konvensiyanın imzalanması oldu. Bu tarixi sənəd diplomatların və siyasətçilərin çoxillik gərgin əməyinin nəticəsidir. Xəzərdən və onun təbii ehtiyatlarından istifadə məsələsində Xəzəryanı dövlətlərin hüquq və vəzifələrini müəyyən edən bu Konvensiya sayəsində indi Rusiya və Azərbaycan şirkətləri neft hasilatı, nəqliyyat, yükdaşımalar, turizm, balıq ovu, ekologiya və Xəzərin bioloji ehtiyatlarının qorunub saxlanması sahəsində çoxsaylı layihələri birgə həyata keçirə biləcəklər.

Ölkələrimizin regionlararası səviyyədə qarşılıqlı əlaqələrinin inkişafı daha bir mühüm amil oldu. Bu gün bizim ölkənin 83 regionundan 71-i Rusiyanın cənub qonşusu ilə əməkdaşlıq edir, onlardan 20-si Azərbaycan ilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalayıblar. Bütün bunlar biznesi daha fəal inkişaf etdirməyə, ticarəti və humanitar əlaqələri genişləndirməyə imkan yaradır. İqtisadiyyat siyasətin əsasıdır. Ona görə deyə bilərik ki, Rusiya və Azərbaycan möhkəm iqtisadi baza əsasında həqiqətən dürüst və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətləri qurmağa nail olublar.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının İdarə Heyəti ölkəmizdəki diplomatik korpusun nümayəndələrinə təqdim edilib

***Yanvarın 29-da Xarici İşlər Nazirliyində "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin və beynəlxalq təşkilatların diplomatik nümayəndələri ilə görüşü keçirilib.***

AZƏRTAC xəbər verir ki, tədbiri açan xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən bəhs edərək, yüz minlərlə azərbaycanlının işğal olunmuş Dağlıq Qarabağ regionundan və ətraf rayonlardan öz evlərindən və mülklərindən zor gücünə didərgin salındığını qeyd edib. O, işğal edilmiş ərazilərimizin azad olunmasının və məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının vacibliyini vurğulayıb. Münaqişənin həlli ilə bağlı davam edən danışıqlar çərçivəsində erməni və azərbaycanlı əhalinin sülhə hazırlanması çağırışını xatırladan nazir müavini bu xüsusda ölkəmizin Dağlıq Qarabağ bölgəsinin iki icması arasında təmasların və dialoqun bərpa edilməsinin önəmini diqqətə çatdırıb.

Mahmud Məmməd-Quliyev görüşün əsas məqsədinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının 23 nəfərdən ibarət olan İdarə Heyətinin ölkəmizdəki diplomatik korpusa təqdim edilməsi olduğunu qeyd edib. O, işğal olunmuş torpaqlarımızdan didərgin salınmış məcburi köçkünlərin, o cümlədən ölkəmizin Dağlıq Qarabağ bölgəsinin 80 min nəfərdən çox



azərbaycanlı icmasının pozulmuş fundamental insan hüquqlarının bərpa olunmasının və bu insanların səsinin beynəlxalq səviyyədə eşidilməsinin yüksək əhəmiyyət kəsb etdiyini diplomatik korpusun diqqətinə çatdırıb.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış edib. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin doğurduğu ağır fəsadları qeyd edərək, beynəlxalq ictimaiyyətin münaqişənin həlli ilə bağlı mövqeyini, o cümlədən BMT TŞ-nin 4 qətnaməsinin tələblərini tədbir iştirakçılarına xatırladıb. Bu xüsusda, beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq ədalətli həllinin tərəfdarı olduğunu vurğulayıb. Şöbə müdiri bildirib ki, Azərbaycanın işğal olunmuş ərazilərinin azərbaycanlı əhalisini etnik təmizləməyə məruz qoyan, onların bütün fundamental hüquq və azadlıqlarını, o cümlədən yaşamaq hüququnu kobud şəkildə pozan Ermənistanın Dağlıq Qarabağın erməni icmasına imtiyazlı hüquqlar tələb etməsi insan hüquqlarının qorunması üzrə bütün sənədlərə köklü şəkildə ziddir.

Daha sonra Hikmət Hacıyev Azərbaycan Respublikası hökuməti tərəfindən bütün məcburi köçkünlər və qaçqınların həyat şəraitinin yaxşılaşdırılması üçün həyata keçirilən ardıcıl siyasətdən, Prezident İlham Əliyev tərəfindən şəhid ailələrinə göstərilən qayğıdan bəhs edib və bu xüsusda yanvarın 28-də şəhid ailələri ilə keçirilən görüş barədə tədbir iştirakçılarına məlumat verib. Şöbə müdiri vurğulayıb ki, Cocuq Mərcanlı kəndində aparılan quruculuq işləri, məcburi köçkünlərin ləyaqətli və təhlükəsiz şəkildə öz doğma torpaqlarına qayıtmasının təmin olunması işğaldan azad ediləcək bütün ərazilərin bərpa olunması, dayanıqlı sülhün və inkişafın bərqərar olması üçün Azərbaycan Respublikasının əzmini bir daha nümayiş etdirir.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev çıxış edərək öncə icma haqqında məlumat verib. O, icmanın ATƏT-in 1992-ci il Helsinki qərarına əsasən münaqişənin həllində maraqlı tərəf olduğunu qeyd edib. Tural Gəncəliyev icmanın İdarə Heyətinə daxil olan 23 nümayəndəni təqdim edib. O, çıxışında vaxtı ilə Şuşada erməni qonşuları ilə birgə sülh şəraitində yaşadığı günləri xatırlayaraq, azərbaycanlı icmanın erməni icması isə təmaslar qurmağa və konstruktiv dialoq aparmağa hazır olduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra icmanın İdarə Heyətinin üzvləri, Xocalıda anadan olmuş Dürdanə Ağayeva və Samirə Hüseynova çıxış ediblər. Onlar Azərbaycanın Xocalı şəhərinin işğalından öncə burada ermənilərlə birgə əmin-amanlıq şəraitində yaşadıqlarını qeyd edərək, dinc erməni əhalisinin Ermənistanın işğalçı siyasətinin girovuna çevrildiyini vurğulayıb, Dağlıq Qarabağın erməni və azərbaycanlı icmaları arasında dialoqun bərpa olunmasının bölgədə etimadın yaradılması baxımından əhəmiyyətli olduğunu bildiriblər.

Tədbir zamanı, həmçinin ölkəmizin Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının digər üzvləri də öz fikirlərini bildirib, eləcə də sualları diplomatik korpusun nümayəndələrinə ünvanlayıblar.

# Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilir

*Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini, YAP Siyasi Şurasının üzvü Musa Quliyevin yap.org.az-a müsahibəsi*



***- Musa müəllim, məlumdur ki, ölkəmizdə uğurlu sosial siyasət həyata keçirilir. Bu baxımdan, Azərbaycanda şəhid ailələrinə göstərilən dövlət qayğısı haqqında fikirlərinizi bilmək istərdik...***

- Ümumiyyətlə, şəhid ailələrinə dövlət qayğısının göstərilməsi Azərbaycanın daxili siyasətində prioritetdir. Bu, Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi-mənəvi yoldur. Xatırladım ki, Ulu öndərimizin təşəbbüsü ilə "Şəhid adının əbədiləşdirilməsi haqqında" qanun qəbul olunmuşdu və bu qanun məhz Heydər Əliyevin 1993-cü il 3 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmişdi. Bütövlükdə, Ümummilli liderimiz Heydər Əliyevin siyasətində şəhid ailələrinə dövlət qayğısı xüsusi yer tutmuşdur.

Hazırda Prezident İlham Əliyev tərəfindən bu siyasət uğurla davam etdirilir. 2003-cü ildən indiyə qədər bu istiqamətdə görülən işlər bunu sübut edir. Bilirsiniz ki, ötən il keçirilmiş prezident seçkilərindən sonra dövlət başçısı İlham Əliyevin imzaladığı ilk Fərman şəhid ailələri ilə bağlı oldu. Yəni, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə şəhid ailələrinə hərtərəfli diqqət və qayğı göstərilir. İndiyə qədər 7 minə qədər şəhid ailəsi mənzillə təmin olunub. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Eyni zamanda, şəhid adının əbədiləşdirilməsi ilə bağlı addımlar atılır, onların əziz xatirəsi daim yad edilir.

***- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. Sizcə, bu görüşün əhəmiyyəti nədən ibarətdir?***

- Bu görüş bir daha göstərdi ki, Prezident İlham Əliyev şəhid ailələrinə nə qədər böyük qayğı, hörmət və ehtiram göstərir. Bu görüşün sosial-siyasi əhəmiyyəti ilə yanaşı milli-mənəvi, vətənpərvərlik baxımından da çox böyük önəmi var. Görüş zamanı dövlət başçısı vətəndaşların sosial məsələlərinin bundan sonra da diqqət mərkəzində olacağını bildirdi. Cənab Prezident xüsusilə vurğuladı ki, Azərbaycan xalqı şəhidlərimizlə fəxr edir, şəhidlərimiz daim bizim ürəyimizdə yaşayır və əbədi yaşayacaqdır. "Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma layaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim"-deyən, ölkə başçısı ölkəmizdə vətəndaşların sosial rifahının daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Görüşdə şəhid ailələrinə dövlət tərəfindən verilən dəstək bir daha vurğulandı. Qeyd olundu ki, bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilib. Yəni, bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Bu proses davamlı olacaq. Ümumiyyətlə, cənab Prezidentin fikirləri bütün cəmiyyətimiz üçün mesajdır ki, hər kəs şəhid ailələrinə hörmətlə yanaşmalıdır.

***- Dövlətimizin başçısı yanvarın 28-də "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb. Bu Fərman bütün cəmiyyətimiz tərəfindən yüksək dəyərləndirilir...***

- Dövlət başçısının imzaladığı bu Fərmanla çox ciddi məsələ öz həllini tapır. Bilirsiniz ki, 1997-ci ildə "Həqiqi hərbi qulluqçuların icbari sosial sığortası haqqında" qəbul olunub. Və bundan sonra şəhid olan hərbi qulluqçuların ailələri qanuna uyğun olaraq sosial sığorta haqqı alıblar. Amma o vaxta qədər şəhid olanların problemi qalmışdı. Yəni, cənab Prezidentin ötən ilin aprel ayında imzaladığı Fərmanla 1997-ci ilə qədər şəhid olmuş həqiqi hərbi qulluqçuların ailələrinə 11 min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulur. Bu Fərmana əsasən 10 minə yaxın şəhid ailəsinin siyahısı dəqiqləşdirildi, 11 min manat birdəfəlik ödəmə üçün ötən il 58 milyon manat vəsait ayrıldı və bu il 50 milyon manatın ayrılması nəzərdə tutulur. Artıq həmin qərara uyğun olaraq birdəfəlik ödəmənin verilməsinə başlanıb və bu il də proses davam edəcək.

1997-ci ildə sözgüdən qanun qəbul olunandan sonra şəhid ailələrinə verilən birdəfəlik ödəmənin məbləği isə xeyli az idi. Ona görə də, cəmiyyətimizdə bununla bağlı müxtəlif fikirlər səslənirdi. Görüş zamanı cənab Prezident söylədi ki, bizim siyasətimiz iki mühüm əsasa söykənir. Bu, qanunçuluq və sosial ədalətdir. Dövlət başçısının 28 yanvar tarixində imzaladığı Fərmanla həm qanunçuluq, həm də sosial ədalət təmin olundu. Beləliklə, 1997-ci ildən sonra az məbləğdə sığorta haqqı alan 2725 nəfərə də 11 min manat birdəfəlik ödəmə veriləcək. Eyni zamanda, o dövrdə ərazi bütövlüyünün qorunması zamanı şəhid olmuş 460-dan çox polis ailələri də dövlətin qayğısından yararlanaraq bu vəsaiti alacaq.

Artıq Fərmanın icrası ilə bağlı işlər başlanıb. Dövlət başçısının Fərmanının icrası ilə bağlı müvafiq dövlət qurumlarına tapşırıqlar verilib. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev Azərbaycanda əhalinin sosial rifahının yüksəlməsi məsələsinə böyük həssaslıqla yanaşır, o cümlədən şəhid ailələrinə daim qayğı göstərir.

# Əli Kərimlinin ölkədə qarşıdurma yaratmaq planı ifşa olundu!

*AXCP-nin Rusiyadan qanunsuz yollarla maliyyələşməsi üzə çıxdı*



***Yanvarın 29-da Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilmiş növbəti baxış iclasında Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov şahid qismində dindirilmişlər. SİA-nın verdiyi məlumata görə, məhkəmə iclasında Cəmil Həsənli, Əli Kərimli, ABŞ və Rusiyanın ölkəmizdəki səfirliklərinin nümayəndələri, eləcə də KİV nümayəndələri iştirak ediblər.***

Elçin Əsgərbəyli məhkəmədə ifadəsində göstərib ki, 1992-ci ilin mayından Rusiya vətəndaşlığını alıb: "Sankt Peterburq şəhərində icarəyə götürdüyüm mağazada işləyərək ailəmi dolandırırdım. 2016-2017-ci illərdə tez-tez Sabirabad və ya Kürdəmir rayonundan olan Zaur adlı şəxs yanıma gəlirdi. Təxminən 2018-ci ilin əvvəllərində Zaur yanında sonradan tanıdığım AXCP-nin üzvü Aqil Məhərrəmovla məni tanış etdi. Aqil söhbət əsnasında AXCP-nin fəaliyyətindən, keçiriləcək mitinqlərdən danışırdı, partiya üzvü olan və olmayan bütün şəxslərdən maddi yardım topladıqlarını deyirdi. Aqil söhbət zamanı dedi ki, ona verəcəyim pul maddi yardım kimi partiya üzvlərinin ailələrinə kömək məqsədilə istifadə ediləcək. Həmçinin qeyd olunan pul toplanmasının partiya sədri Əli Kərimlinin məlumatı əsasında icra etdiyini deyirdi".

Daha sonra E.Əsgərbəyli bildirib ki, Aqil ona Rusiyada yaşayan bir neçə şəxsin onlara mütəmadi olaraq maddi yardım etdiyini və həmin pulları da qanunsuz yollarla Azərbaycana göndərdiyini deyib. Deyib ki, Azərbaycana göndərilən pul vəsaitləri nəzarətdə olduğu üçün pulu onlar başqa yollarla Azərbaycana göndəriblər. Aqil bildirib ki, pul əsasən AXCP-nin mitinqlərində texniki vasitələrin alınmasına xərclənəcək və həmin pullar əsasən Əli Kərimliyə veriləcək.

E.Əsgərbəyli məhkəmədə ifadəsində deyib ki, telefonunda olan proqram vasitəsilə özünün "Sberbank" bankında olan hesabına daxil olaraq Aqilin verdiyi bank hesabına 15.000 rubl məbləğində pul köçürüb.

Bundan bir müddət sonra Rusiyada yaşayan azərbaycanlılardan Gədəbəy rayonunun əvvəllər icra başçısı işləmiş Saleh Rüstəmov adlı şəxsin Rusiyada yaşayan azərbaycanlılardan pul toplayıb AXCP və Əli Kərimliyə göndərməsi barədə xəbər tutub. Aqil Məhərrəmova yalnız bir dəfə 15.000 rubl məbləğində pul verib və Adilə Məhərrəmovanın adına olan "Sberbank" hesabına göndərib. Həmin pulu verməkdə məqsədi ehtiyacı olan ailələrə kömək etmək olub.

Cavid Məsimli ifadəsində göstərib ki, atası 2005-ci ildən etibarən Moskva şəhərində işləyir, 2013-cü ildə atasının təklifi ilə işləmək üçün onun yanına gedib və restoranda aşbaz işləyib.

"Facebook" sosial şəbəkəsindən istifadə etdiyindən "Aqil Əli Məhərrəm" adlı istifadəçi ilə dostlaşıb. Bir müddət sonra Aqil ondan 3000 rubl verməsini xahiş edib və o, həmin pulun necə və hara xərclənəcəyini soruşub. Aqil isə ona bank hesabı kodunu göndərib, bildirib ki, pul AXCP üçün lazımdır və pullar Əli Kərimliyə çatacaqdır.

2018-ci ilin may ayında 3000 rubl pulu Moskva şəhərində yerləşən "Sberbank" vasitəsi ilə Aqilin ona göndərdiyi bank koduna göndərib.

Bundan sonra bir müddət "facebook" sosial şəbəkəsində xəbərlərə baxarkən Gədəbəy rayonunun əvvəllər icra başçısı işləmiş Saleh Rüstəmov adlı şəxsin Rusiyada yaşayan azərbaycanlılardan pul toplayıb AXCP və Əli Kərimliyə göndərməsi barədə xəbər tutub.

Cavanşir Abuşov ifadəsində bildirib ki, 2018-ci ilin iyununda Moskvada yerləşən "Skarabey" bazarında işləyən azərbaycanlılardan ona məlum olub ki, Orxan Zeynalova köməklik adı ilə verilmiş hesaba toplanan pullar əslində Azərbaycan xalq cəbhəsi partiyasının Azərbaycan ərazisində mitinq və toplantılarının maliyyələşdirilməsi, partiya sədrinə maddi dəstək göstərilməsi məqsədilə toplanılıb. Eşidib ki, Rusiyada azərbaycanlılardan nağd və bank vasitəsilə bu məqsədlə pullar toplanılıb və qanunsuz yolla Azərbaycana göndərilib. Məhkəmənin növbəti iclası yanvarın 30-na təyin edilib.

# Erməni ombudsmanı: "Penitensiar müəssisələrində ciddi problemlər mövcuddur"



"Əsas problem budur ki, aclıq məsələləri və ölüm halları ilə bağlı baş verən hadisələr baxımından, bizdə ümumi strategiya yoxdur". SİA xəbər verir ki, Ermənistanın ombudsmanı Arman Tatoyannın bu barədəki fikirlərini "news.am" saytı yazıb. Onun sözlərinə görə, mövcud məsələlərlə əlaqəli bütün işlər yalnız fərdi hadisələr hallarında müzakirə edilir və prinsipcə, bu yolverilməzdir və kifayət deyil. "Təəssüf ki, hər belə hadisədən sonra, onun hansı səbəbdən və şəraitdən baş verməsini analiz etmirik və əvvəl-axır bunun səbəbləri öyrənilmədilir", Tatoyan jurnalistlərlə söhbətində bildirib. Ombudsman həmçinin qeyd edib ki, tibbi xidmətin göstərilməsi sistemində də ciddi problemlər mövcuddur, xüsusilə penitensiar müəssisələrində. Halbuki, müvafiq müəssisənin əməkdaşları ilə müəyyən işlər aparılıb.

Xatırladaq ki, Ermənistanın "Nubaraşen" həbsxanasında ötən ilin 4 dekabr tarixindən başlayaraq aclıq aksiyası keçirən jurnalist-siyasi məhbus Miger Yegizaryan bunun nəticəsində həyatını itirib. Onun oğlu Vazgen Yegizaryan isə, Ermənistan parlamentinin deputatları da daxil olmaqla, atasının vəziyyətinə biganə qalan baş nazir Nikol Paşinyanı ittiham edib. Ermənistan ictimaiyyətində bu hadisə birmənalı qarşılanmır və ölkə rəhbərliyi kəskin ittiham hədəfinə çevrilib.

**Rövşən NURƏDDİNOĞLU**

ARAŞDIRMA

# Dəyişkən hava şəraitinin yaratdığı fəsadlar

**Son illər hava şəraitində tez-tez dəyişikliklərin baş verdiyini müşahidə edirik. Xarici mühit amillərinin davamlı dəyişməsinin insan orqanizminə təsirsiz ötüşmədiyini nəzərə alsaq, havaların kəskin dəyişməsi insan sağlamlığında da fəsadlar yaradır. Azərbaycanda son illər ilin istənilən fəslində hava şəraitinin normadan kənara çıxdığının, daha dəqiq desək kəskin şəkildə dəyişdiyinin şahidi oluruq. Əgər əvvəllər hava şəraiti daha çox payız və yaz fəsillərində dəyişirdisə, indi artıq bunu digər fəsillərdə hiss edir, hətta fəsadlarını yaşayırıq deyə bilərik.**





Bəs görəsən hava şəraitində baş verən dəyişikliklərin səbəbi nədir? Dəyişik hava insan sağlamlığında hansı fəsadlar yaradır?

Dəyişikliklərin səbəblərini saytımıza açıqlayan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun direktoru Gülşad Məmmədova söyləyib ki, əvvəlki illərə nəzər salsaq yanvar ayında hava bir qədər dəyişkənlik müşahidə olunub: “Yanvar qış ayı və builki qış fəslinin mülayim keçməsinə baxmayaraq bəzi günlərdə havanın şaxtalı və soyuq olması istisna edilmir. Arktik hava kütləsinin ölkə



ərazisinə daxil olması nəticəsində Azərbaycanda hava şəraiti dəyişir, soyuq, küləkli bəzi bölgələrdə qarlı hava şəraiti müşahidə olunur”.

Onun sözlərinə görə, paytaxtda yağışlı hava şəraiti müşahidə olunsa da, bölgələrdə, əsasən də dağlıq ərazilərə qar yağır: “Havanın temperaturu iqlim normasına yaxın, bəzi günlərdə isə iqlim normasından 1-2 dərəcə yüksəkdir”.

## “İqlim dəyişmələri Azərbaycana da təsirsiz ötüşmür”

Son illər iqlim dəyişmələrinin müşahidə olunduğunu deyən G.Məmmədova vurğulayıb ki, bu dəyişmələrin fəsadları bütün dünyada, eləcə də Azərbaycanda da hiss olunmaqdadır: “Qarşıda fevral ayı olsa da, hazırda qış fəsli mülayim keçir. Bu daha çox paytaxta aiddir. Belə ki, paytaxtda yağıntı yağış şəklindədir, amma bölgələrimizdə qar müşahidə olunmaqdadır. Bundan əvvəlki illərdə də qış fəslində paytaxta qar yağmadığını, mülayim qış fəslini müşahidə etmişik. Lakin elə illər də olub ki, yanvar ayında kəskin soyuq olub”.

## “Hava şəraitində ciddi bir dəyişikliklər gözlənilmir”

Yaxın iki gündə hava şəraitində ciddi bir dəyişikliklərin gözlənilmədiyini deyən Proqnozlar Bürosunun direktoru qeyd edib ki, temperatur iqlim normasına yaxın bəzi günlərdə isə normadan 1-2 dərəcə yüksək olacaq: “Yanvarın 30 və 31-də yağmursuz hava şəraiti olsa da, səhər saatlarında zəif duman və çiskin olacağı istisna edilmir”.

## Dəyişkən hava şəraitinin meteohəssas insanlara təsiri?

G.Məmmədova dəyişkən hava şəraitinin meteohəssas insanlara təsirindən də söz açıb. Qeyd edib ki, bu, gün ərzində şimal-qərb küləyinin güclənməsi atmosfer təzyiqinin yüksəlməsi və rütubətli hava şəraiti meteohəssas insanlarda narahatlıq hissi yarada bilər: “Güclü küləklər ürək-damar xəstəliyindən əziyyət çəkənlərə öz təsirini göstərməkdədir ”.

## “Havaların dəyişməsi infeksiyalara yoluxma ehtimalını artırır”

İqlim dəyişmələrinin insan sağlamlığında yaratdığı fəsadlar haqqında məlumat verən Səhiyyə Nazirliyinin baş infeksionisti, Azərbaycan Tibb Universitetinin dosenti Cəlal İsayev deyib ki, havanın kəskin dəyişməsi bütün insanlara təsir göstərsə də, bundan ən çox ürək, qan-damar xəstəliklərindən əziyyət çəkənlərdə narahatlıq yaradır.

Onun sözlərinə görə, hər kəs havaların dəyişməsinə hazır olmalıdırlar: “Xüsusilə də qış mövsümündə buna diqqət etməli, geyimimizə fikir verərək özümüzü soyuqdan qorumalıyıq. Çünki soyuqdəymə orqanizmin zəifləməsinə səbəb olur və nəticədə bir çox, xüsusilə də hava damcı yolu ilə yayılan infeksiyalara yoluxma ehtimalı artır. Bura qrip, para qrip, Adena, Rino virusu və digərləri daxildir. 200-dən artıq virus növü var ki, onların hər biri zökəm əlamətləri ilə gedir, qripəbənzər sindroma malik olaraq xəstəlik törədir. Havanın dəyişməsi bu cür xəstəliklərin sayının artmasına səbəb olur.

## “Xroniki xəstəliklər ağırlaşa bilər”

Baş infeksionist vurğulayıb ki, havanın dəyişməsi orqanizmin ümumi zəifləməsinə gətirib çıxarır ki, bu da nəticə etibarı ilə bir sıra bakterial infeksiyaların baş qaldırmasına səbəb ola bilər: “Xroniki xəstəliklərimiz varsa, onlar belə hava şəraitində daha da ağırlaşa bilər. Hava dəyişməsi bütün hallarda insan or-



qanizminə səbəb olan faktorlardan biridir”.

C.İsayev qeyd edib ki, insanlar dəyişkən hava şəraitinə hazırlıqlı olmaq üçün ilk növbədə immun sistemlərini möhkəmləndirməlidirlər: “İmmun sistemini gücləndirmək üçün düzgün qidalanmaya xüsusi fikir verilməlidir. Qidalarımız tam keyfiyyətli, təmiz olmalı, müxtəlif qatqılar olan qidalar qəbul edilməməlidir. Vitaminlərə, zəngin minerallara, ən əsası da meyvə və tərəvəz üstünlük verməliyik. Vətəndaşlarımız vaxtında qidalanmaya fikir verməlidirlər. Digər tərəfdən açıq havada çox, fiziki cəhətdən aktiv olmalıyıq. İdmanla məşğul ola bilmiriksə, o zaman təmiz havada gəzmək şərtdir. Yuxumuz normal olmalıdır. Yuxu normal olarsa, immun sistemimiz daha da qüdrətli olar. Nəhayət stresslərdən uzaq olmalıyıq. Xroniki xəstəliyi olanlar dəyişkən hava şəraitində daha çox diqqətli olmalıdırlar. Çünki onlarda orqanizm daha zəif olur belə hallar orqanizmin daha zəifləməsinə gətirib çıxara bilir. Yaşlı insanlar, hamilə qadınlar o cümlədən körpələrin qidalanmasına xüsusi fikir verilməlidir”.

## Hava şəraiti insan psixologiyasına necə təsir göstərir?

Hava şəraitinin insan psixologiyasına təsirini açıqlayan psixoloq Vəfa Əkbər bildirib ki, elə insanlar var ki, onlar hava şəraitindən və fəsildən asılıdırlar: “Elə insanlar var ki, yağışlı hava onlarda depressiv vəziyyət yaradır, günəşli havada isə əksinə daha yüksək əhval-ruhiyyədə olurlar. Belə vəziyyət daha çox həssas və ya temperament olaraq melanxolik insanlarda müşahidə etmək mümkündür”.

Psixoloqun sözlərinə görə, havanın dəyişməsindən təsir altına düşən insanlar düşdükləri mühitin təsirinə də tez düşə bilirlər: “Belə şəxslər bir neçə həftəlik mühitlərini dəyişdikdə belə həmin mühitin xüsusiyyətlərini özlərinə götürə bilirlər. Misal üçün ləhcə, danışıq



tərzlərini düşdükləri mühitə uyğunlaşdırırlar. Havadan, hadisələrdən asılı olan şəxslərə konformist insanlar deyilir”.

V.Əkbər qeyd edib ki, özlərini kontrol etməyi bacaran insanlar üçün hava dəyişkənliyinin heç bir fərqi yoxdur: “ Çünki, onlar özlərini kontrol etməyi, fikirlərini dağıda bilirlər. Amma həssas insanların nə qədər məşğuliyyətləri olsa da, onlar duyğularının qurbanı olurlar. Çiskinli, tutqun yağışlı hava həssas insanlarda mənfi əhval-ruhiyyə yaradır”.

*Nailə Məhərrəmova*

# Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır

## *Millət vəkilləri, ictimai-siyasi xadimlər Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı Fərman və Sərəncamları şərh etdilər*

***Prezident İlham Əliyevin yeni Fərmanına əsasən, birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsinin daha da genişləndirilməsi, eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında verdiyi Sərəncam ölkəmizin ictimai-siyasi xadimləri və millət vəkilləri tərəfindən də böyük sevinc və fərəh hissi ilə qarşılanıb. Bununla bağlı "Səs" qəzetinə verilən açıqlamalarda bildirilir ki, ölkə başçısı İlham Əliyevin qəbul etdiyi qərarları, bütövlükdə, Onun tərəfindən yürüdülən uğurlu sosial siyasətin məntiqi nəticəsidir və bu siyasət gələcəkdə də davam etdiriləcək.***

### Millət vəkili Aqiyə Naxçıvanlı: "Cənab Prezidentin şəxsən özü şəhid valideynlərinə, həmçinin varislərinə yaxınlaşaraq, onlara öz dərin ehtiramını bildirdi, fərdi söhbətlərini apardı, eləcə də digər qayğıları ilə maraqlandı"



"Prezident İlham Əliyevin Fərmanına əsasən, bütün şəhid ailələrinə, ümumiyyətlə, Azərbaycanımızın bütövlüyü uğrunda canlarından keçmiş oğul və qızlarımızın hər birinin ailələrinə, onların vərəsələrinə veriləcək birdəfəlik yardım, həqiqətən də, bizlərin hər birimizə böyük qürur, fərəh və iftixar hissləri bəxş etdi. Artıq birdəfəlik müavinətlər şəhid ailələrinin bütün kateqoriyalarına aid edilir, yəni torpaqlarımız uğrunda şəhid olan polislərimizin də ailələri bu müavinətlərdən yararlanacaqlar". Bu fikirləri Azərbaycan Respublikası Milli Məclisinin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin sədri, Milli Məclisin deputatı Aqiyə Naxçıvanlı qeyd edilən məsələyə münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin və ölkəmizin Birinci Xanımı Mehriban xanım Əliyevanın şəhid ailələri ilə keçirdikləri həmin görüşdə şəhid ana və atalarına, onların övladlarına göstərdikləri doğmalıq və qayğı faktoru növbəti dəfə sübut etdi ki, Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir və O, illər öncə verdiyi vədini öz əməli işləri ilə sübuta yetirir: "Xüsusilə, qeyd etmək istərdim ki, bu görüşdə bir çox diqqətçəkici məqamlar oldu. Cənab Prezidentin şəxsən özü şəhid valideynlərinə, həmçinin, varislərinə yaxınlaşaraq, onlara öz dərin ehtiramını bildirdi, fərdi söhbətlərini apardı, eləcə də, digər qayğıları ilə maraqlandı. Bu addım həm də onu isbat edir ki, İlham Əliyev Cənabları öz əsrarəngiz sadəliyi ilə seçilən dövlət başçısıdır. Deyərdim ki, heç bir başqa ölkələrdə bu kimi addımlar atılmır və İlham Əliyev Cənablarının belə bir münasibəti, əslində, digər ölkə rəhbərlərinə bir nümunə etalonu sayıla bilər".

"Biz, hədsiz iftixar hissi ilə qeyd edirik ki, Azərbaycan xalqının belə Prezidenti var" deyə vurğulayan millət vəkili, onu da qeyd edib ki, görüş əsnasında şəhid ailələri üzvlərinin istər Prezident İlham Əliyevlə, istərsə də ölkəmizin Birinci Xanımı Mehriban xanım Əliyeva ilə fotoşəkillər çəkdirmələri, həmin görüşdən ayrılmaq istəməmələri, Onlara olan tükənməz minnətdarlıq və səmimi sevgi hisslərindən qaynaqlanır: "Bəli, bu, həm də Azərbaycan xalqının istər Cənab Prezidentə, istərsə də Onun xanımına olan sevgisinin bariz göstəricisidir. Çünki görünən budur ki, şəhid ata-analarının bu qayğıya ehtiyacları var və onlar bu qayğını, məhz Prezident İlham Əliyevdən, Mehriban xanım Əliyevadan gördülər. Bu həssas məqamlar, əlbəttə ki, mənim də, digər insanlarımızın da qəlbimizi qürurlandırdı".

"Düşünürəm ki, bu Fərman həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan ən mühüm, ölkə vətəndaşlarının rifahının yüksəldilməsinə yönələn ən humanist addımlardan biri kimi qiymətləndirilməlidir" deyə vurğulayan Aqiyə Naxçıvanlı Fərmanla yanaşı, Prezident İlham Əliyevin şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında verdiyi Sərəncamı, eləcə də, həmin Sərəncama əsasən, əlavə 35 milyon manatın ayrılmasına da münasibətini bildirərək deyib ki, ölkə başçımızın öz çıxışlarında sosial siyasəti prioritet istiqamət olaraq vurğulaması, Fərman və Sərəncamlar imzalaması bu siyasətin davamı olaraq dəyərləndirir və hər bir azərbaycanlı tərəfindən, birmənalı olaraq, dəstəklənir. "Qoy, Azərbaycanı istəməyənlər, şəxsi mənfəətlərini güdərək, dövlətçilik maraqlarımıza qarşı çıxanlar anlasınlar ki, onların dövlətimizin mövqeyinə kölgə salmaq cəhdləri, hər zaman olduğu kimi, bu dəfə də puça çıxdı. Çünki Azərbaycanda xalq-dövlət vəhdəti mövcuddur və bu vəhdət, məhz Prezident İlham Əliyev Cənablarının yürütdüyü məqsədyönlü, uğurlu sosial, siyasi və iqtisadi siyasətinin bariz isbatıdır".

### YAP Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva: "Şəhid ailələri ilə görüş və imzalanmış Fərman böyük diqqət və qayğının növbəti təcəssümüdür"



"Azərbaycan Prezidentinin şəhid ailələri ilə görüşməsi, onları dinləməsi, eləcə də, daha 3 minə qədər şəhid ailəsinin birdəfəlik müavinətlə təmin olunması haqqında Fərman imzalaması Cənab İlham Əliyevin və dövlətin bu məsələyə nə qədər həssas yanaşdığını nümayiş etdirir". Bu fikirləri isə, Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, dövlət başçısının növbəti humanist təşəbbüsü ilə, əlavə olaraq, 2264 şəhid hərbi qulluqçu və 461 şəhid polisimizin vərəsələrinə də birdəfəlik ödəmə veriləcək. Yeni Fərmanla birdəfəlik ödəmələr, artıq 12268 şəhidin vərəsələrini əhatə edir və ödəniləcək vəsaitin həcmi 135 milyon manata çatır: "Cənab Prezidentin mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan Fərman və görüş ictimaiyyətimiz tərəfindən də çox yüksək dəyərləndirilir".

Deputat diqqətə çatdırıb ki, Prezident Sarayında şəhid ailələri ilə keçirilən görüş anti-Azərbaycan dairələrinə də böyük siyasi mesaj oldu: "Ötən ilin aprel ayından Cənab Prezident İlham Əliyevin imzaladığı Fərmanın əhəmiyyətinə kölgə salmağa çalışan anti-Azərbaycan qüvvələri şəhid ailələrinin məlumatsızlığından və həssaslığından istifadə edərək, siyasi dividendlər qazanmağa, ölkəmizin imicinə ləkə gətirməyə çalışırdılar. Bu prosesdə erməni lobbisi ilə yanaşı, radikal müxalifət və Avropadakı "sapı özümüzdən olan baltalar" xüsusi canfəşanlıq edirdilər. Lakin hər zaman olduğu kimi, bu dəfə də xalqımız, xüsusilə də, şəhid ailələri təxribatlara uymadı, dövlətinin və Cənab Prezident İlham Əliyevin yanında olduğunu nümayiş etdirdi. Elə Prezident Sarayında çıxış edən şəhid ailələri, birmənalı şəkildə, dağıdıcı ünsürlərin çağırışlarına "yox" dedilər və daim Prezident İlham Əliyevlə birgə olduqlarını isbatladılar".

### Millət vəkili Rauf Əliyev: "Şəhid ailələri daim Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə əhatə olunub"



"Şəhid ailələri daim Azərbaycan Prezidentinin diqqət və qayğısı ilə əhatə olunub və bu, davamlı xarakter alıb." Sözügedən fikirləri Milli Məclisinin deputatı Rauf Əliyev bildirib. Onun sözlərinə görə, şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir: "1 yanvar 2019-cu il tarixinə 12 779 şəhid ailəsi, 119 nəfər 20 Yanvar şəhidi ailəsi, 11 994 nəfər Qarabağ əlili, 327 nəfər 20 Yanvar hadisələri zamanı əlil olanlar Prezident təqaüdü, 49 692 nəfər Qarabağ müharibəsi veteranı müavinətlə təmin olunur".

Millət vəkili əlavə edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə göstərdiyi xüsusi qayğı nəticəsində 2018-ci ildə əvvəlki ilə nisbətən bu kateqoriyadan olan ailələrə 3 dəfə çox - 626 mənzil təqdim olunub: "İndiyədək bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil verilib. Şəhid ailələrinə və müharibə əlillərinə, eləcə də, milli qəhrəmanlara verilən Prezident təqaüdlərinin də məbləği ötən dövrdə, mütəmadi olaraq, artırılıb. Bununla da, bu kateqoriyadan olan ailələrin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb".

O bildirib ki, 2018-ci ildə keçirilən prezident seçkilərindəki qələbəsindən sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman da buna bariz nümunədir: "Şəhid hərbi qulluqçuların ailələrinə 11 min manat birdəfəlik ödəmənin verilməsini nəzərdə tutan bu Fərman həmin ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində atılan ən mühüm, ölkə vətəndaşlarının rifahının ildən-ilə yüksəldilməsinə yönələn ən humanist addımlardan biri kimi qəbul edilməlidir. Bu Fərmanla 9531 şəhid hərbi qulluqçunun vərəsəsinə nəzərdə tutulan birdəfəlik ödəmələr veriləcək. Artıq 3,1 min nəfərin 4,2 min vərəsəsi birdəfəlik ödəməni alıb və bu proses 2019-cu ildə yekunlaşacaq. Dövlətimizin başçısı yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşü zamanı aprel döyüşlərinin bütün dünyaya Azərbaycanın güclü ordusu olduğunu və xalqımızın heç vaxt işğalla barışmayacağını göstərdiyini bildirdi. Prezident İlham Əliyev şəhid ailələrinə Vətən üçün gözəl övladlar yetişdirdiklərinə görə təşəkkür etdi, xalqımızın şəhidlərlə fəxr etdiyini, onların bizim ürəyimizdə əbədi yaşayacağını bildirdi".

### YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov: "Prezident İlham Əliyevin mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan 28 yanvar 2019-cu il tarixli Fərmanı yüksək səviyyədə icra ediləcəkdir"



"Prezident İlham Əliyevin yeni Fərmanı birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsini daha da genişləndirdi və Onun şəhid ailələri ilə görüşdə irəli sürdüyü fikirləri, bu ailələrin qayğıları ilə ayrı-ayrılıqda maraqlanması, bütövlükdə, Azərbaycan xalqına göstərilən diqqətin məntiqi göstəricisidir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov bildirib. Onun sözlərinə görə, ötən dövrdə 3100 şəhid hərbi qulluqçunun 4200-ə qədər vərəsəsinə birdəfəlik ödəmə həyata keçirilib, bu istiqamət üzrə 34 milyon manat vəsait ödənilib. Hazırda 6444 şəhidin vərəsələrinə ödənişlər davam etməkdədir: "Bu baxımdan, həmçinin qeydə edə bilərik ki, Cənab Prezidentin bu gün imzaladığı Fərmanla birdəfəlik ödəmənin əhatə dairəsi daha da genişlənib. Onun mühüm sosial əhəmiyyət kəsb edən və şəhid ailələrinə böyük diqqət və qayğının növbəti təcəssümü olan 28 yanvar 2019-cu il tarixli Fərmanı yüksək səviyyədə icra ediləcəkdir".

Hikmət Şikarova görə, ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır: "Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünün məbləği ötən dövrdə, mütəmadi olaraq, artırılmaqla milli qəhrəmanlar üçün 1500 manata, şəhid ailələri üçün 242 manata, müharibə əlilləri: I qrup əlillər üçün 182 manata, II qrup əlillər üçün 158 manata, III qrup əlillər üçün 121 manata çatdırılıb. Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərindən böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, pensiya hüququ olmayan az bir qismi isə əlilliyə görə müavinət alırlar. Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə və müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinət verilir. Şəhid ailəsi və milli qəhrəman ailəsi üzvlərinə əmək pensiyası təyin olunarkən əlavə də hesablanır, həmçinin, şəhid ailələrinin və müharibə əlillərinin uşaqları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Digər sahələrdə də şəhid ailələrinin sosial müdafiəsi məqsədilə mühüm tədbirlər həyata keçirilir və bu tədbirlər qarşıdakı dövrdə də ildən-ilə gücləndiriləcəkdir".

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycan Prezidentindən xalqa xidmətin növbəti nümunəsi

***Azərbaycanda həyata keçirilən uğurlu dövlət siyasətinin mərkəzində insan, vətəndaş amili dayanır. Atılan bütün addımlar, reallaşdırılan innovativ islahatlar insanların sosial rifahının daha da yaxşılaşdırılmasına, sosial müdafiəsinin etibarlı şəkildə təmin edilməsinə istiqamətlənib. Son illər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlara diqqət yetirsək, onların əksəriyyətinin sosial xarakterli olduğunu görərik. Şəhid ailələrinə diqqət və qayğı isə dövlətimizin başçısının xüsusi olaraq nəzarətindədir. Elə bunun nəticəsidir ki, indiyə qədər bu kateqoriyadan olan vətəndaşlara 6654 mənzil, 6144 avtomobil, 2018-ci ildə isə 626 mənzil verilib. Bu il, həmiçinin bu kateqoriyadan olan vətəndaşlara azı 800 mənzilin verilməsi planlaşdırılır.***



Bu fikirləri AZƏRTAC-a açıqlamasında açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib. Vüqar Rəhimzadə qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə Prezident Sarayında şəhid ailələri ilə görüşü onlara olan diqqət və qayğının bariz nümunəsidir. Görüşdə çıxış edən Prezident İlham Əliyev deyib: “Azərbaycan xalqına xidmət etmək mənim üçün böyük şərəfdir. Prezident kimi həmişə çalışmışam ki, xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hərtərəfli inkişafına təkan verim”. Dövlətimizin başçısının bu fikirləri xalqa xidmət nümunəsinin parlaq təzahürüdür. Dövlətimizin başçısı bununla bir daha hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi, şəhid ailələri və bu kateqoriyadan olan insanların daim dövlətin diqqət mərkəzində olduğunu göstərdi. Hesab edirəm ki, bu amil xalq-iqtidar, xalq-Prezident birliyini daha da möhkəmləndirir, onu daha güclü və sarsılmaz edir.

“İki sahil” qəzetinin baş redaktoru vurğulayıb ki, bu günlərdə Azərbaycan Prezidentinin ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı növbəti Sərəncamı bu kateqoriyadan olan insanlar, eyni zamanda, xalq tərəfindən böyük sevinc və minnətdarlıqla qarşılandı: “Sərəncama əsasən, ərazi bütövlüyümüz, müstəqilliyimiz və konstitusiya quruluşumuzun müdafiəsi ilə bağlı əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin davam etdirilməsinə 35 milyon manat ayrıldı. Doğrudan da bu, böyük diqqətdir, qayğıdır. Düşünürəm ki, dünyanın hansısa ölkəsində vətəndaşa bu qədər qayğıkeş münasibət olsun. Hesab edirəm ki, möhtərəm Prezidentimizin atdığı növbəti humanist addımlar onun xalqın qəlbindəki yerini daha əziz, əvəzedilməz edir, dünyaya əsl dövlət başçısı nümunəsini göstərir”.

## “Əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması dövlət siyasətinin əsasını təşkil edir”



“Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldiyi ilk gündən bəyan etmişdi ki, xalq hakimiyyət üçün deyil, hakimiyyət xalq üçündür. Əsası Ulu Öndər tərəfindən qoyulan siyasət bu gün də cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sübut olunur ki, ölkə rəhbərliyinin həyata keçirdiyi siyasətin əsaslarından biri xalqımızın sosial vəziyyətinin, rifah halının yaxşılaşdırılmasına yönəlib”. Bu fikirləri SİA-ya Milli Məclisin deputatı Elman Məmmədov Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın ötən gün şəhid ailələri ilə görüşünə münasibət bildirərkən deyib.

Millət vəkili bildirib ki, Azərbaycanın iqtisadi inkişafı, hərbi gücünün artması və eləcə də digər sahələrdə görülən işlər də əhalinin maddi rifah halının gündən-günə yaxşılaşmasına xidmət edir: “Ölkəmizdə verilən müavinətlər, təminatlar, təkcə məcburi köçkünlər üçün deyil, eləcə də şəhid ailələri, aztəminatlı, hərbiçi ailələrimiz üçündür. Cənab Prezident bu kateqoriyadan olan insanlar üçün lazımi tədbirləri görür. Bu istiqamətdə növbəti addım dövlət başçısının ötən gün bir qrup şəhid ailələri ilə görüşü və daha sonra imzalanan fərman idi. Bütün bunlar dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqətin əyani sübutudur”. E.Məmmədov qeyd edib ki, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ölkəmizdə həyata keçirilən siyasətin əsasını təşkil edir.

## Bu il sahibkarlığın inkişafı üçün 160 milyon manatadək güzəştli kredit veriləcək

Cari ildə ölkədə sahibkarlığın inkişafı üçün 160 milyon manatadək güzəştli kredit veriləcək.

AZƏRTAC xəbər verir ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayev yanvarın 29-da Bakıda keçirilən “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfrans çərçivəsində sahibkarlarla aparılan müzakirələr zamanı deyib. Nazir bildirib ki, 2018-ci ildə ölkədə pambıqçılığın inkişafı üçün 16,5 milyon manat güzəştli kredit verilib. Bu il isə Azərbaycanda sahibkarlığın inkişafı üçün 160 milyon manatadək güzəştli kredit veriləcək. Ötən il 16 mindən çox sahibkara güzəştli kredit verilib.

## “Görüş düşmənə qarşı mübarizə əzminin güclənməsinə kömək edir”



Ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Ötən dövrdə bu kateqoriyalardan olan vətəndaşlara 6654 mənzil təqdim edilib, o cümlədən, 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil verilib. 2019-cu ildə isə həmin vətəndaşlara azı 800 mənzilin təqdim olunması nəzərdə tutulur. Eləcə də bu vaxta qədər müharibə əlillərinə 6144 avtomobil verilib. Məsələ ilə bağlı SİA-ya açıqlama verən millət vəkili Musa Qasımlı deyib: “Cənab Prezidentimiz İlham Əliyevin və birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələri ilə görüşü onlara həm dövlətimizin xüsusi qayğısının, həm də milli-mənəvi dəyərlərimizə olan böyük diqqət və ehtiramın göstəricilərindən biridir. Bu görüş eyni zamanda gənclərimizdə vətənpərvərlik, dövlətçilik və torpaq sevgisi hisslərinin, düşmənə qarşı mübarizə əzminin güclənməsinə kömək edir”.

## Səadət Səfərova: “Bu, çox humanist bir addım və şəhidlərə verilən yüksək dəyərdir”



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Prezident Sarayında şəhid ailələri ilə keçirilən görüş böyük razılıq və rəğbət hissi ilə qarşılanıb. Görüşün iştirakçıları, şəhid ailələrinin üzvləri və ictimaiyyət nümayəndələri onu çox yüksək dəyərləndirirlər.

Həmin görüşdə iştirak edənlərdən biri, şəhid Məstan Novruzovun həyat yoldaşı Səadət Səfərova AZƏRTAC-a deyib: “Həyat yoldaşım 1994-cü il yanvarın 11-də Füzuli rayonun Aşağı Əbdürəhmanlı kəndi uğrunda gedən döyüşlərdə şəhid olub. Məstan “ata” kəlməsi eşitmədən əbədiyyətə qovuşdu. İndi şükür Allaha, onun iki yadigarını böyüdüb boya-başa çatdırmışam. Prezident Sarayında keçirilən görüş bizə çox böyük maddi və mənəvi dəstək oldu. Biz bir daha müqəddəs torpağımızın düşmən işğalından azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsinin necə əziz və uca tutulduğunu gördük. Biz bir daha inandıq ki, doğrudan da şəhidlər ən ali mərtəbəyə layiqdir. Onlar yüksəldikləri bu ali və uca mərtəbədə layiqli şəkildə də qiymətləndirilməlidir. Dövlət başçısının şəhid ailələrinin üzvləri ilə görüşü bu qənaətimizi təsdiqlədi”. “Vərəsələrə ödəniləcək 11 min manat məbləğində vəsaitə görə bir daha Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Bu addım atılan humanist bir addım və Vətən müdafiəçilərinə verilən çox böyük dəyərdir”, - deyə şəhidin həyat yoldaşı fikrini yekunlaşdırıb.

## Şəhid anası: “Hərbi qulluqçuların ailə üzvləri dövlətin diqqət və qayğısından məmnundurlar”

***Şəhid Bəhram Qasımov 1992-ci ildə Ağdam rayonun Abdal-Gülablı kəndinin müdafiəsi uğrunda gedən müharibədə həlak olub. Cəsur döyüşçünün anası İltima Qasımova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə keçirdiyi görüşdə iştirak edib.***



O, AZƏRTAC-ın müxbiri ilə görüş barədə təəssüratlarını bölüşüb: “İlk növbədə onu deməliyəm ki, dövlət başçısının şəhid vərəsələrinə göstərdiyi bu diqqət və ehtiram hər cür təqdirə layiqdir. Həm də Prezident görüş zamanı çox haqlı olaraq əvvəllər alınan sığorta ödəmələrinin müasir dövrün dəyərləri ilə uyğun gəlmədiyini söylədi. Əlbəttə, şəhid hamı üçün əzizdir və onların arasında ayrı-seçkilik etmək, fərq qoymaq olmaz. Bu mənada Prezidentin şəhid hərbi qulluqçulara birdəfəlik ödəmələr barədə verdiyi son Fərman bu sahədə ədalətin təntənəsidir”.

Şəhid anası deyib: “Oğlumun itkisi məni nə qədər göynədib və ağrıdırsa, onun şəhidlik zirvəsinə yüksəlməsi qəlbimi qürur və iftixar hissi ilə doldurur. Bəhram torpaq, Vətən, xalq uğrunda şəhid olub. İndi o, təkcə mənim oğlum deyil, bütün millətin, xalqın oğludur. Təsəllim bir odur ki, hamı Bəhramı özünə oğul, qardaş, ən yaxın və doğma adam kimi qəbul edir. Mənə toxtaqlıq verən onun əməyinin, apardığı mübarizənin qiymətləndirilməsi, ailəmizə göstərilən maddi və mənəvi dəstəkdir. Dövlət başçısı İlham Əliyevin verdiyi Fərman və Prezident Sarayında şəhidlərin vərəsələri ilə görüşü, şəhidlərə verdiyi qiymət, oradakı ab-hava bunun dövlət səviyyəsində ifadəsinə çevrildi”.

# Xalqımızın bədii fikir tarixinə yeni parlaq səhifə açmış yazıçı

*Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi İsmayıl Şıxlının 100 illik yubileyi qeyd ediləcək*

***Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, istedadlı nasir, tanınmış ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, Xalq yazıçısı İsmayıl Şıxlı yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmışdır. Üslubun mükəmməlliyi, bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı ilə səciyyələnən yaradıcılıq yolu bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın təcəssümüdür. Azərbaycan ədəbiyyatında yeri və çəkisi olan İsmyaıl Şıxlının anadan olmasının 100 illik yubileyinin qeyd olunması məqsədi ilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyi və Təhsil Nazirliyi Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, yazıçının 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlanıb həyata keçirəcək.***

Qeyd edək ki, İsmayıl Şıxlı 1919-cu il martın 22-də Qazax rayonunun İkinci Şıxlı kəndində müəllim ailəsində dünyaya göz açıb. İlk təhsilini Qazax rayonunun Kosalar kənd məktəbində alıb. Müəllim sənətinə olan marağı onu Qazax Pedaqoji Texnikumuna gətirir. 1936-cı ildə texnikumu bitirən İsmayıl Kosalar kənd orta məktəbində müəllim kimi çalışmağa başlayıb. Kənddə iki il müəllim işlədikdən sonra 1937-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil-ədəbiyyat fakültəsinə daxil olur. Qaynar tələbəlik həyatı ilk günlərdən onun həssas və romantik təbiətinə öz təsirini göstərməyə başlayır. Səməd Vurğun və Mehdi Hüseyn kimi sənətkarlarla təmasda olması onun ədəbi-bədii təsəvvür dairəsini genişləndirir. 1938-ci ildə "Ədəbiyyat" qəzetində "Quşlar" adlı ilk şeiri çapdan çıxır. 1942-ci ildə isə İsmayıl Şıxlı cəbhəyə yola düşür. 1945-ci ildə cəbhədən qayıdan ədib 1946-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun ədəbiyyat ixtisası üzrə aspiranturasına daxil olur və yaradıcılığını davam etdirir.



İsmayıl Şıxlının ilk nəsr əsəri olan "Həkimin nağılı" hekayəsi 1947-ci ildə "İnqilab və mədəniyyət" jurnalında işıq üzü görür. İlk uğurdan ruhlanan İsmayıl Şıxlı yazıları ilə bağlı Mehdi Hüseynə müraciət edərək, ondan tez-tez məsləhətlər alarmış. 50-ci illərin ikinci yarısından yazıçının yaradıcılığında yüksəliş dövrü başlayır. 1957-1966-cı illərdə, o, "Dəli Kür" romanı üzərində çalışır. 1962-ci ildə "Azərbaycan" jurnalında İsmayıl Şıxlının "Dəli Kür" romanının I hissəsi çap olunur. Özünə qarşı həddindən artıq tələbkar olan, hər cümləsini ölçüb-biçən İsmayıl Şıxlı, neçə illər ikiotaqlı mənzilinin bir küncünə çəkilib yazır və bu əsəri oxucuların həddsiz marağına səbəb olur. Əsər barədə yazıçı Mehdi Hüseyn yazırdı: "Əzizim İsmayıl! "Dəli Kür" əsərini dünən gecə oxuyub qurtardım. Düzünü deyim ki, mən səndən yaxşı əsərlər gözləyirdim, amma bu cür qüvvətli və təsirli bir əsər yazmağını gözləmirdim. Əhsən, bərəkallah! Son on ildə bizim ədəbiyyatımızdan oxuduğum heç bir əsər məni bu cür sarsıtmamışdı". Əsəri tamamlamaq üçün İsmayıl Şıxlıya daha dörd il vaxt lazım gəldi. Nəhayət, 1966-cı ildə "Azərbaycan" jurnalında romanın II hissəsi dərc olundu.

"Dəli Kür" müəllifinə nəsrimizdə yeni inkişaf tendensiyasının yaradıcılarından biri kimi böyük nüfuz qazandırıb. "Dəli Kür", nəinki nəsrimizdə, həm də ictimai şüurumuzda, milli özünüdərkimizdə dönüş yaradan əsərlərdəndir. İ.Şıxlının bir nasir kimi inkişafında görkəmli yazıçımız Mehdi Hüseynin xüsusi təsiri olmuşdur. Gənc nasirin Böyük Vətən müharibəsindən əvvəl və sonra yazdığı ilk hekayələrini oxuyan M.Hüseynin ona gördüyü və bildiyi hadisələrdən sadə və təbii dildə yazmaq və s. sənətkarlıq məsələləri barədə tövsiyələri müsbət nəticə vermişdir. 1941-1945-ci illər müharibəsi İ.Şıxlının həyat yolunda, taleyində mühüm rol oynayıb, silinməz izlər buraxdığı kimi, yaradıcılığına da mühüm mövzu kimi daxil olmuşdur. Onun bu mövzuda 1947-1948-ci illərdə yazdığı hekayələri - "Həkimin nağılı", "Kerç sularında", "Səhəri gözləyirdik", "Haralısan, ay oğlan", "Konserv qutuları" bir nasir kimi ilk uğurlarıdır. Bundan başqa, İ.Şıxlı cəbhəyə getdiyi ilk gündən qələbədən sonra evə qayıdanadək gündəlik qeydlər aparmışdır. Yazıçı "Cəbhə yolları" (1985) kitabında bu barədə belə yazır: "Mən hər gün gördüyüm və başıma gələn işləri dəftərimə qeyd edirdim və çalışırdım ki, heç nəyi artırıb-əskiltməyim".

Bundan sonra yazıçı cəbhə gündəliklərinə oxucuların marağını görüb, onu "Bir əsgərin gündəliyi" adı ilə "Mənim rəqibim", bir az təkmilləşdirərək, lakin yenə də ixtisarla "Cəbhə gündəlikləri" adı ilə "Xatirəyə dönmüş illər" və "Məni itirməyin" kitablarına daxil etmişdir. Bu əsərdə yazıçı bu gün də çox aktual olan, çox geniş miqyasda müzakirə və mübahisə obyektinə çevrilən müharibə və insan, müharibənin insan həyatına və taleyinə təsiri məsələsinin özünəməxsus orijinal bədii həllini vermək üçün müharibənin, bilavasitə özünü, qanlı döyüş səhnələrini əks etdirib. İ.Şıxlı 70-ci illərdə yazdığı "Mənim rəqibim", "Köynək" kimi hekayələrində cəbhə xatirələrinə yenidən, lakin yeni bir şəkildə və tam yeni bir niyyətlə müraciət edib.

İ.Şıxlının yaradıcılığında müasir mövzular da mühüm yer tutur. Onun müasir mövzuda yazdığı əsərlərdən biri də "Dağlar səslənir" povestidir. Yazıçı müharibədən sonra Azərbaycanda yeni salınan üç sənaye şəhərlərindən biri olan Daşkəsənlə daha çox maraq göstərib. O, 1950-1951-ci illərin yay aylarını Daşkəsəndə keçirib, bu şəhərin, əsasən, cavanlarından olan sakinlərinin işi, gündəlik həyatı və fəaliyyətləri barədə oçerklər yazaraq, mətbuatda çap etdirib. Nəhayət, Daşkəsən fəhlələrinin həyatından bəhs edən "Dağlar səslənir" (1951) povesti yaranıb. "Dəli Kür"dən sonra o, uzun müddət irihəcmli nəsr əsri yazmayıb. Bununla belə, "Dəli Kür"dən sonra sonuncu əsəri "Ölən dünyam"a qədər olan dövr İsmayıl Şıxlının həyatında mühüm bir mərhələ sayılır. İsmayıl Şıxlı ömrünün son illərində qələmə aldığı "Ölən dünyam" romanıdır. Deyilənə görə, əsəri özü yazmağa başlasa da, sonradan ağır xəstəliyin fəsadı nəticəsində, gözləri tutulduğu üçün romanın əksər hissəsini diktə etmək məcburiyyətində qalıb. Bu işi isə ömür-gün yoldaşı Ümidə xanıma həvalə edib.

İ.Şıxlı "Azərbaycan" jurnalında baş redaktor, Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, SSRİ Yazıçılar İttifaqının katibi olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin Ağsaqqallar Şurasının sədri seçilmişdir.

O, ictimai işlərdə fəal çalışmış, Azərbaycan Respublikası Ali Sovetinin deputatı, Azərbaycan KP Bakı Şəhər Komitəsinin, Azərbaycan KP MK-nın, Azərbaycan Həmkarlar Şurası Rəyasət Heyətinin, SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir.

Xidmətlərinə görə "Qızıl Ulduz", "Şərəf nişanı", "Qırmızı Əmək Bayrağı", II dərəcəli "Böyük Vətən müharibəsi" ordenləri və medallarla təltif edilmişdir. Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanını və Azərbaycan Respublikasının "Şöhrət" ordenini almışdır.

1995-ci il iyulun 26-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

***Zümrüd BAYRAMOVA***



## "Adsız yüksəkliklər" Bakıda ilk dəfə nümayiş olunub

"Park Cinema"da rejissor Hilal Baydarovun ekranlaşdırdığı "Adsız yüksəkliklər" bədii filmi nümayiş olunub. AZƏRTAC xəbər verir ki, xronometrajı 93 dəqiqə olan ekran əsərində rejissor fəlsəfi bir problemi - insanın təbiət qarşısında diz çökməsini ortaya qoyur. Bu ekran əsəri hazırda beynəlxalq festivallarda uğurla nümayiş olunur. Rejissor bu filmində təkəbbürün, birgəyaşayışın və iyerarxiyanın mahiyyətini tədqiq edir.

## Ünvanlı dövlət sosial yardım almaq üçün müraciət edənlərdən torpağa mülkiyyət hüququna dair çıxarış tələb edilməyəcək




Ünvanlı dövlət sosial yardımının alınması üçün elektron qaydada müraciət prosedurunun sadələşdirilməsi, aztəminatlı ailələrin sosial yardım proqramına daha rahat və asan müraciət imkanlarına şərait yaradılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ardıcıl addımlar atılır.

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, torpağa mülkiyyət hüququna dair çıxarışı olmayanlar da bu gündən etibarən ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edə bilərlər. Ünvanlı dövlət sosial yardımı üçün müraciət zamanı elektron sistem Dövlət Aktı üzrə sığortaedənin uçot nömrəsinə dair informasiya sistemindən avtomatik olaraq torpağın mülkiyyətçisi və payçıları haqqında məlumatı əldə edəcək. Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət prosedurunun sadələşdirilməsi işləri qarşıdakı dövrdə də aparılacaq.

## "Tezliklə elektron ödəniş sistemi tam avtomatlaşdırılacaq"



Tezliklə elektron ödəniş sistemi tam avtomatlaşdırılacaq. Bu barədə Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev bu gün Bakıda keçirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfrans çərçivəsində sahibkarlarla aparılan müzakirələr zamanı deyib.

O bildirib ki, sahibkarların xaricdən idxal etdiyi malların Dövlət Gömrük Komitəsinin Bakı Baş Gömrük İdarəsində saatlarla növbədə gözlədilməsi məsələləri aradan qaldırılacaq: "İdarədə bəyannamə təqdim etdikdən sonra sahibkarların növbədə gözləməsi komitədən asılı olan vəziyyət deyil. Bu texniki problemlərlə bağlıdır".

"Belə növbələrin yaranmasına səbəb elektron ödəmə sistemində texniki nasazlığın hələ də tam aradan qaldırılmamasıdır. Artıq bununla bağlı iş aparılır. Tezliklə elektron ödəniş sistemi tam avtomatlaşdırılacaq. Bu, yüklərin daha tez boşaldılmasına və sahibkarların məhsullarının daha tez çatdırılmasına imkan verəcək", - deyə komitə sədri əlavə edib.

## <u>İradə İbrahimova:</u> "Polietilen torbaların pullu olması ilə bağlı təkliflər paketi razılaşdırılma mərhələsindədir"



Ekologiya və Təbii Sərvətlər Nazirliyi plastik və polietilen tullantılarının ətraf mühitə mənfi təsirlərinin azaldılması məqsədilə kompleks Tədbirlər Planı hazırlayıb və qərar verilməsi üçün aidiyyəti qurumlara təqdim edib. Hazırda polietilen torbaların pullu olması, plastik qablaşdırma materiallarından istifadənin məhdudlaşdırılması, alternativ qablaşdırma materiallarından istifadə üçün şəraitin yaradılması və bu kimi digər məsələlərlə bağlı təkliflər paketi razılaşdırılma mərhələsindədir.

Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova məlumat verib. İ.İbrahimova, həmçinin bildirib: "Polietilen torbalar ətraf mühiti çirkləndirən əsas amillərdən biridir. Bu torbalar təbii yolla çürüyüb parçalanmır, torpağa qarışmır və uzun müddət tullantı kimi qalaraq ətraf mühiti çirkləndirir. Ona görə də marketlərdə polietilen torbaların pulla satılmasını dəstəkləyirik, lakin qiymət məsələsini biz müəyyən etmirik. Marketlərdə sellofan torbaların pulsuz verilməsi ilk baxışdan yaxşı bir təşəbbüs kimi görünür. Alıcılar da pulsuzdur deyə bundan məmnuniyyətlə istifadə edirlər. Ancaq bilmirlər ki, bu torbaların ətraf mühitə, flora və faunaya mənfi təsirləri hesaba gəlməyəcək dərəcədə böyükdür. Ona görə də sellofan torbalardan istifadə tədricən məhdudlaşdırılmalıdır. Həmin torbalar istifadə edildikdən sonra atılır və nəticədə yol kənarlarında, ətraf ərazilərdə xoşagəlməz mənzərə yaranır".

# İkili standartlar hələ də tətbiq olunur

***Ermənistan həbsxanasında aclıq aksiyası keçirən erməninin ölümü yeni hakimiyyətin, ümumilikdə, erməni cəmiyyətinin əsl simasını, həmçinin, dırnaqarası demokratiyanın iç üzünü ifşa edən növbəti arqumentdir. Bu arqument təkcə Paşinyan hakimiyyətinin saxtakarlığını deyil, eyni zamanda, özünü demokratiya carçısı kimi təqdim edən, beynəlxalq hüququn norma və prinsiplərini, insan haqlarını, hüquqlarını, azadlıqlarını, ədalətlilik prinsiplərini qoruyan kimi təqdim edən beynəlxalq təşkilatların da ədalətsizliyini, ikili yanaşma, ikili standartların tətbiqi siyasətini ifşa edir.***





“Haynews.am” xəbər saytının rəhbəri, siyasi məhbus Mger Yegizaryanın Yerevandakı “Nubarasen” həbsxanasında ölümü bir çox məqamlara aydınlıq gətirmək üçün yetərlidir və bu erməni cəmiyyətində demokratiya, insan, söz azadlığı kimi pafoslu çıxışların boş və cəfəngiyyatdan ibarət olduğunu təsdiq edir. Kütləvi informasiya vasitəsinin rəhbərini siyasi məhbus kimi həbs edən, onun aclıq aksiyasına məhəl qoymayan, hətta ölümlə nəticələnəcəyini belə hesaba almayan dövlətin, onun hakimiyyətinin demokratiyadan dəm vurması çox gülünc səslənir.

Nikol Paşinyanın bu ölüm hadisəsi ilə əlaqədar susqunluğu isə heç cür qəbul edilən deyil. Sual oluna bilər: niyə Paşinyan insan azadlığı barədə pafoslu çıxışlar etdiyi halda, bir sayt rəhbərinin, yəni media nümayəndəsinin siyasi məhbus kimi saxlanılmasına, onun aclıq aksiyasına və nəhayət, bu aksiya səbəbindən, həyatını itirməsinə biganədir? Budurmu nümayişlərdə insan azadlığından dəm vuran dırnaqarası demokratın azadlıq tələbi? Yaxud insan azadlığı, demokratiya tələbi ilə nümayiş keçirən Paşinyan bu “azadlığı”mı gətirmək istəyirdi, Ermənistana?

Siyasi məhbus kimi həbs edilən, nəticədə, həyatını itirən bir media nümayəndəsinin timsalında dırnaqarası erməni demokratiyasının, ermənilərin insan azadlığı ideyalarının nə qədər çürük olduğu özünü büruzə verir. Bəlli olur ki, nümayişlərdə insan azadlığı, demokratiya çağırışları edənlərin, başda Nikol Paşinyan olmaqla, niyyəti heç də bu ali prinsiplər deyildi. Məhz siyasi məhbus olaraq media nümayəndəsinin həbs edilməsi və onun aclıq aksiyası səbəbindən, həyatını itirməsi demokratiya, insan azadlıqları barədə çağırışların, əslində, hansısa maraqlara xidmət etdiyini isbatlayır. Bu fakt təsdiq edir ki, nə Paşinyanın, nə də onu dəstəkləyən qüvvələrin maraq dairəsində heç də bu ali prinsiplər olmayıb və demokratiya, insan azadlıqları nümayişlərdə alət olaraq istifadə olunub.

## Paşinyanın idarəçiliyinə qarşı Ermənistanda narazılıqlar var

Siyasi məhbus Mger Yegizaryanın aclıq aksiyası keçirməsi nəticəsində, elə həbsxanadaca həyatını itirməsi heç erməni mediasında da birmənalı qarşılanmır. Ermənistana məxsus mətbuat səhifələri bu hadisəni dövlətin öz vətəndaşını necə öldürməsini əks etdirən nümunə kimi işıqlandırır. İşğalçı ölkənin mətbuatında etiraf olunur ki, Ermənistanın yeni Penitensiar Xidməti, eyni zamanda, yeni hakimiyyəti, faktiki olaraq, əvvəlki kriminal-oliqarxik sistemdən heç nə ilə fərqlənmir. Etiraf olunur ki, hazırda Ermənistanda korrupsiya, başıpozuqluq, himayəçilik və qətllər davam edir. Dəyişən yalnız nazirlərdir və görəsən, baş nazir Ermənistan barəsində nə düşünür? Bu ölkədə yaşayan insanların ölümü, ümumiyyətlə, Ermənistan onu maraqlandırmırmı? Əlbəttə, əgər bütün nümayişlər nəticə etibarı ilə baş nazir postunun ələ keçirilməsinə hesablanmışdısa və hazırda insan haqları, hüquq və söz azadlıqları pozulursa, deməli, pafoslu çıxış edənləri öz mövqelərindən başqa heç nə maraqlandırmır.

Ermənistanda baş verənlər, yəni siyasi məhbusun aclıq aksiyası, məhz bu aksiya səbəbindən də, həyatını itirməsi ilə bağlı “The Washington-Post” qəzeti “Erməni siyasi xadim aclıq aksiyasından sonra öldü” başlıqlı məqalə dərc edib. Hətta məqalədə həyatını itirən siyasi məhbusun oğlu Vazgenin Ermənistanın baş naziri və parlamentin bir qrup deputatına açıq məktub ünvanlayaraq, onları atasının ölümünə bais olmaqda günahlandırması da, öz əksini tapır. Eyni zamanda, məqalədə o da vurğulanır ki, baş nazirə ünvanladığı məktubda Vazgen Paşinyanın ələ keçirdiyi postdan istifadə etdiyini yazır və “bu kreslo bu gün sizdədir, sabah isə başqasında” yazmaqla isə, o, baş nazirin tezliklə həmin postdan uzaqlaşacağına əminliyini də ifadə edir. Bu isə, əslində, o deməkdir ki, Paşinyanın idarəçiliyinə qarşı Ermənistanda narazılıqlar var və tezliklə onun da hakimiyyətdən uzaqlaşacağı gözlənilir.

## Ermənilər mövcud hakimiyyətin insan azadlığına etinasız yanaşdıqlarını etiraf etdikləri halda, beynəlxalq təşkilatların susqunluğu heç bir ölçüyə sığmır

Ermənistanda vətəndaşın siyasi məhbus kimi həbs edilərək azadlığının əlindən alınması, nəticədə həyatını itirməsi, bu səbəbdən də, işğalçı ölkədə narazılıqların olması fonunda Avropa Parlamentinin susqunluğu heç cür qəbul edilən və anlaşılan deyil. Daha dəqiq desək, ermənilər özləri belə Ermənistan hakimiyyətinin insan azadlığına etinasız yanaşdıqlarını, söz azadlığının, demokratiyanın kobud şəkildə pozulduğunu etiraf etdikləri halda, beynəlxalq təşkilatların susqunluğu heç bir ölçüyə sığmır. Yəni demokratik təşkilatlar, beynəlxalq qurumlar və hüquqi institutlar ermənilərin özlərindən də çox, bu işğalçı ölkənin tərəfini saxlamağamı qalxıblar?

Azərbaycanda məlum qanun pozuntusuna görə mühakimə olunan məhbusun guya aclıq aksiyası keçirməsini əlində bəhanə edib ölkəmizə qarşı hücuma keçən avroparlamentarilər indi hara baxırlar və niyə ağızlarına su alıb susurlar? Nəinki aclıq aksiyası, ümumiyyətlə, heç bir aksiya keçirməyən, bunu ağlından belə keçirməyən azərbaycanlı barədə hay-küy qoparan dırnaqarası demokratlar həqiqətən, aclıq aksiyası keçirməsi səbəbindən, məhz ölümlə nəticələnən aksiyaya görə niyə Ermənistan hökumətini hədəfə almırlar? Ümumiyyətlə, Mger Yegizaryan ölməmişdən əvvəl belə, aclıq aksiyası keçirdiyinə görə, siyasi məhbus məsələsinə görə niyə işğalçı ölkəyə irad tutulmurdu? İndi keçirdiyi aclıq aksiyasına görə ölən siyasi məhbusun məsələsi də Ermənistan əleyhinə arqument hesab edilmirmi? Bu arqument kifayət etmirmi Ermənistanın demokratiyanı, söz, insan azadlığını pozması faktının təsdiqi üçün? Hələ də bu hadisəyə olan susqunluğa nə ad vermək olar? M.Hüseynovun məsələsi ilə bağlı ard-arda bəyanat verən Qərb siyasətçiləri, beynəlxalq təşkilatların nümayəndələri, beynəlxalq QHT-lər erməni cəmiyyətinin hakimiyyətin insan azadlıqlarını və demokratiyanı pozması etirafından sonra daha nəyi gözləyirlər?

## Aclıq aksiyasına və ölüm faktına görə reaksiya verilməməsi Ermənistanda demokratiya oyunlarında Qərbin əlinin olduğunu təsdiq edir

Sözsüz ki, qonşu ölkədə yaşananlar Qərbin müvafiq qurumlarının demokratiya maskalarının növbəti dəfə cırılması üçün kifayət edir. Kifayət edir ki, Qərb üçün demokratiyanın, insan azadlıqlarının maraq dairəsində olmadığı üzə çıxsın və təsdiqlənsin. Eyni zamanda, bu fakt və həmin bu fakta görə reaksiya verilməməsi də, öz növbəsində, bir çox məqamlara aydınlıq gətirir və Ermənistanda demokratiya oyunlarında Qərbin əlinin olduğu öz təsdiqini tapır.

Bəlli olur ki, başda Paşinyan olmaqla, erməni cəmiyyətini nə demokratiya maraqlandırmayıb, nə söz, nə də insan azadlıqları. Bu işğalçı ölkədə nümayişləri, küçə yürüşlərini ssenariləşdirənləri, təşkil edənləri maraqlandıran Paşinyanın əli ilə mövqeyi ələ keçirmək olub və indi baş verən məlum hadisələrə susqunluqları da bunu təsdir edir. Əks halda siyasi məhbusun ölümü ilə əlaqədar yetərincə səs-küy qoparar, buna görə izahat da tələb edərdilər. Amma biz bunun əksini müşahidə etdik və müşahidələr təsdiq edir ki, Ermənistan hökumətinin nə etdiyi, necə etdiyi zərrə qədər də onları narahat etmir və onlar göz yummaqda da davam edirlər.

Avropa İttifaqının xarici siyasət komitəsinin mətbuat katibi qurumun adından bəyan edir ki, biz Ermənistan hökumətinin ədalətli istintaq aparacağını və istintaqdan sonra lazım olan tədbiri görəcəyini gözləyirik. Bu bəyanat, əslində, absurd səslənir və kimin nəyi gözlədiyini əvvəlcədən xəbər verir. Əvvəla, siyasi məhbusun ölümündə sorumlu, günahkar elə Ermənistan hökumətidir və bu halda, ondan hansısa tədbir görəcəyini gözləmək çox gülüncdür. Çünki sözügedən hökumət tədbir görsə idi, əvvəldən görərdi və belə bir hal baş verməzdi. Digər tərəfdən, mətbuat nümayəndəsini siyasi məhbus kimi həbs edib, yəni söz, insan azadlığını hesaba almayan, onun keçirdiyi aclıq aksiyasına, bu aksiyanın ölümlə nəticələnməsinə məhəl qoymayan bir hökumətin ədalətli istintaq aparacağını gözlədiklərini deyən Kosyanin indi kimi aldatmaq niyyətindədir və onun bu fikirlərinə kim inanar?

Doğrudur, Ermənistanda demokratiya, insan hüquqlarının müdafiəsi, söz azadlığı olmadığını, pafosla işlədilən bu ali prinsiplərin komuflyaj kimi istifadə olunduğunu dünya ictimaiyyəti çox yaxşı bilir. İşğalçılıq siyasəti yürüdən, qonşu dövlətin ərazilərini zəbt edən, işğal edən, etnik təmizləmə siyasəti yürüdərək insanları vəhşicəsinə qətlə yetirən, Xocalı faciəsi kimi insanlıq dramına imza atan, milyondan çox insanı yurdyuvasından didərgin salan işğalçıların insan hüquqlarından, söz azadlığından, demokratiyadan danışmağa zərrə qədər haqqı çatmır və bunu bilməyən də yoxdur. İndi özünü bilməzliyə vuran beynəlxalq qurumların Ermənistandakı bu son fakt qarşısında qalmalarına rəğmən, yenə də susmaları, hətta bu işğalçı hökumətin ədalətli istintaq aparacağını gözləmələri onların özlərinin ədalətsizliyini, ədalətsiz yanaşmalrını təsdiq edir. Təsdiq edir ki, həmin qurumlar hələ də ikili standarlar siyasətini davam etdirirlər və beynəlxalq təşkilatlar Ermənistan hökumətinə, onun qanunsuz əməllərinə göz yumaraq, ədalətsiz mövqe nümayiş etdirirlər. Bir sözlə, ikili standartlar hələ də tətbiq olunur və bu standartları tətbiq edənlərin ədalətdən danışmağa belə haqqı çatmır.

***İnam HACIYEV***

# Sorosun uşaqları ağır duruma düşüb

*“Radikal müxalifət qanunsuz aksiyalara cəhd göstərməklə xarici havadarlarının qarşısında götürdükləri öhdəlikləri yerinə yetirməyə çalışırlar”*

***Hər cür ictimai təpkilərə və qınağa baxmayaraq, müxalifət partiya yetkililəri bu gün də öz iyrənc əməllərini və fəaliyyətlərini davam etdirirlər. Xüsusi ilə də, son vaxtlar Corc Sorosun ayırdığı maliyyə vəsaitinə aldanan dağıdıcı müxalif ünsürlər sosial şəbəkələrdə hədələyici bəyanatlarla çıxış edir, rüsvayçılıqla nəticələnən aksiyalar yolu ilə qarşıdurmalar yaratmağa cəhdlər göstərirlər. Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin hay-küyünün onların öz başlarında çatlayacağını və nəhayətdə səbir kasası daşan xalqın onları ciddi cəzalandıracağını bildirdilər.***

## <u>“Həftə İçi” qəzetinin baş redaktoru Sevinc Seyidova:</u> “Radikal müxalifət düşdüyü böhranlı durumundan çıxa bilməyəcək”



- Son günlərdə müxalifətin qanunsuz aksiya keçirmək cəhdləri və bu istiqamətdə çağırışları ölkədə təmin edilmiş ictimai-siyasi asayişin pozulması məqsədi daşıyır. Dövlət sərbəst toplaşmaq azadlığı haqqında qanunun tələblərinə uyğun olaraq, hər zaman icazəli dinc aksiyaların keçirilməsinə şərait yaradıb. Lakin dinc aksiyaların təşkili zamanı ictimai marağın az olduğunu, mitinqə gələnlərin sayının, iddia edildiyi kimi, “güclü sosial bazamız var” açıqlaması ilə ziddiyyət təşkil etdiyini görən radikal müxalifət düşdüyü böhran durumundan çıxmağa və gündəmdə qalmağa çalışır. Gündəmdə qalmaq üçün isə, məhz əhalinin sıx məskunlaşdığı, hərəkətin intensiv olduğu yerlərdə 30-40 nəfərin iştirakı ilə qanunsuz aksiyalar keçirərək, oradakı insanları da özünün sosial bazası kimi təqdim etməyə səy göstərir. Lakin Azərbaycan cəmiyyəti, artıq 25 ildir ki, bu kimi üsulların hansı məqsədlərə xidmət etdiyini gözəl bilir. İcazəli mitinqlərdə 10 partiya toplaşaraq, cəmi 2-3 min insan topladığı üçün onlara ölkəmizdə ictimai-siyasi sabitliyi pozmaq məqsədilə pul ayıran xarici qaranlıq mənbələr istədiklərini ala bilmədiyi üçün hesab tələb edirlər. Radikal müxalifət kəsimi isə, qanunsuz aksiyalara cəhd göstərməklə, xarici havadarlarının qarşısında götürdükləri öhdəlikləri yerinə yetirə bilməmələrinin əsas səbəbkarı kimi Azərbaycan dövlətini göstərməyə çalışırlar. Halbuki dövlət qanunlar çərçivəsində hər zaman icazəli aksiyaların təşkilinə şərait yaradıb. 19 yanvar mitinqi bir daha bunun sübutudur. Lakin radikal müxalifət istər 20 Yanvar ümumxalq hüzn günündə, istərsə də 26 yanvar tarixində törətdiyi qanunsuz əməllərlə öz niyyətini bir daha açıq şəkildə ortaya qoymuş oldu.

## <u>Politoloq Elxan Şahinoğlu:</u> “Müxalifət qrant əldə etmək üçün aksiyalar keçirməyə çalışır”



- Demokratik cəmiyyətlərdə mitinqlərin keçirilməsi normal bir haldır, o cümlədən də, Azərbaycanda. Yəni kimsə mitinq keçirmək istəyirsə, əvvəlcədən icazəsini almalı və mitinqini keçirməlidir. Bir şərtlə ki, qanun və qaydalara riayət etsinlər. Təəssüf ki, bəzi müxalifət təmsilçiləri müstəqil olmadıqlarından, qrant əldə etmək üçün aksiyalar keçirməyə çalışırlar. Ümumiyyətlə, Azərbaycanda önəmli olan sabitlikdir və sabitliyin davamlı olması Azərbaycan üçün çox vacibdir. Çünki bu gün Azərbaycan dövlətinin uğurlu inkişafına paxıllıq edən, qısqanclıq hissi ilə yanaşan bəzi xarici qüvvələr var. Həmin xarici qüvvələr də Azərbaycanın sabitliyinin pozulmasında maraqlıdırlar. Amma tam əminliklə deyə bilərəm ki, heç bir xarici qüvvə ölkəmizdəki sabitliyi poza bilməz. Çünki ölkəmizdə möhkəm əsaslara malik sabitlik mövcuddur.

## <u>“Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov:</u> “Müxalifət hələ də ağıllanmayıb”



- Hər dəfə mitinq keçirib, sonradan rüsvayçı bir vəziyyətə düşən müxalifət hələ də ağıllanmayıb. Şərəfsiz və yaramaz bir yol seçən dağıdıcı xislətli müxaliflər nə qədər mitinq keçirsələr də, nə isə bir uğur qazanmaq şansları sıfıra bərabərdir. Çünki xalq müxalifəti dəstəkləmir. Bunu Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli, İsa Qəmbər və digərləri də çox gözəl bilirlər. Müxalifət icazəli şəkildə mitinq keçirsə də, adam sayı çox az idi. Bu da onlardakı inamsızlıqla bağlıdır. Cəmiyyət müxalifətin hansı xarici maraqlı dairələrlə bağlı olduğunu yaxşı bilir və buna görə də, onları rədd edirlər. Mitinqlər yolu ilə, müxalifət partiya sədrləri xarici “ağalarına” özlərini reklam etmək istəyirlər. Onlar bu cür yersiz hərəkətlərinin qarşılığında xarici “ağalarından” pul alırlar. Xarici qüvvələr güclü, inkişaf etmiş Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq üçün daxildə olan müxalifətdən bir vasitə kimi istifadə edir. Yəni müxalifəti maliyyələşdirərək, ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq istəyirlər. Amma hər zaman olduğu kimi, bu dəfə də onların məkrli istəkləri reallaşmayacaqdır.

**GÜLYANƏ**

# <u>Politoloq:</u> “Avropa Parlamentinin bu addımı riyakarlıqdır”



“Avropa Parlamentinin Ermənistanda baş verənlərə susması çox təəccüblüdür. Çünki, bu ölkədə həbsxanada ölən şəxs sosial şəbəkənin fəalı, siyasi partiyalardan birinin sədr müavinidir. Onun həbsxanaya atılmasının ciddi səbəbinin olmaması barədə məlumatlar dolaşmaqdadır. Xüsusilə gənc və kifayət qədər sağlam olan bir şəxsin həbsxanada öldürülməsi, ona qarşı işgəncə buna bənzər hadisələrin olduğunu göstərir. Baş verənlər həqiqətən də hakimiyyət tərəfindən işlədilən suç kimi qəbul edilə bilər”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.

O bildirib ki, ən azından baş verən hadisələrin araşdırılması üçün beynəlxalq təşkilatlar, Avropa tərəfindən bəyanat formasında fikir ifadə edilməli idi: “Çünki burada söhbət insan həyatından və bu şəxsə qarşı şübhəli davranışlardan gedir. Bəzən Avropanın ikili standartlardan yaxa qurtardığını, dünyada baş verən bütün hadisələrə eyni mövqedən yanaşdığını düşünmək istəsək də, Ermənistanda baş verənlərə göz yumulmasına gəldikdə burada fərqli mənzərənin şahidi oluruq”. Onun sözlərinə görə, Ermənistanda siyasi fəalın öldürülməsi ciddi qanun pozuntusu olmaqla yanaşı, hakimiyyət üçün siyasi məsuliyyət yaradan faktdır: “Bu fakta Avropa ölkələri, digər beynəlxalq təşkilatların, BMT-nin insan haqları ilə bağlı komitəsinin münasibət göstərməməsi ciddi təəssüf hissi doğurur”. Q. Hüseynli söyləyib ki, Avropa Parlamentinin Mehman Hüseynovla bağlı əsası olmayan məsələni şişirtsə də, Ermənistanda ölümlə nəticələnən hadisəyə reaksiya verməməsi riyakarlığın göstəricisidir: “Ermənistanın hüquq mühafizə təşkilatları da məsələyə zəif formada reaksiya verdilər. Zənnimcə, beynəlxalq təşkilatlar bu işə müdaxilə etməsə, siyasi şəxsə qarşı işgəncə faktlarının, buna bənzər zorakılıq hallarına siyasi qiymət verməzsə, bu, Avropanın ayıbı olaraq yaddaşlarda qalacaq”.

Politoloq vurğulayıb ki, Avropa Parlamenti Ermənistana qarşı münasibətdə həddindən artıq riyakarlıq nümayiş etdirməsini xristian təəssübkeşliyi, kimi qiymətləndirməkdən başqa əlacı qalmır: “Ermənistan işğalçı, təcavüzkar ölkədir. Nədənsə bəzi təşkilatların bunu söyləməyə cəsarəti çatmır. Ermənistan Azərbaycana külli miqdarda ziyan vurub, işğal olunan ərazilərdə tarixi və mədəni abidələri dağıdıb, ekologiyaya, yer quruluşuna ciddi zərbə vurub, toponimləri dəyişdirib. Bəzi ərazilərdə məskunlaşma siyasəti aparır, azərbaycanlıların tarixən yaşadığı ərazilərə uzaq Suriyadan ermənilər köçürülür. Bütün bunlar beynəlxalq səviyyədə cəzalandırılmalı, ciddi siyasi mövqe ortaya qoyulmalıdır. Amma təəssüf ki, nə siyasi aktivin öldürülməsi, nə də digər məsələlərə münasibət bildirilmir. İkili standartlılıq Avropa dəyərlərinə etinasızlıq, tarixən mədəniyyətlərin daşıyıcısı olan Avropanın gözdən salınması siyasətidir”.

**Nailə Məhərrəmova**

## Ermənistanda keçmiş deputatın restoranında atışmada ölən və yaralananlar var



Ermənistanda yeni hökumətin amnistiya aktından sonra kriminal vəziyyət daha da pisləşib. AZƏRTAC erməni KİV-lərə istinadla xəbər verir ki, yanvarın 28-də axşam saatlarında Ermənistan parlamentinin keçmiş deputatı Melikset Manukyanın sahibi olduğu restoranda baş vermiş atışma nəticəsində 1 nəfər ölüb, 8 nəfər yaralanıb. Yaralılar Yerevan və Abovyanın xəstəxanalarına çatdırılıb. Onlardan bəzilərinin vəziyyətinin ağır olduğu bildirilir.

Yerevan polisinin məlumatına görə, “Partez” adlanan restoran əsl döyüş yerinə çevrilib. Cinayətkarlar atışmada müxtəlif növ silahlardan, o cümlədən “Makarov” və “TT” tapançalarından istifadə ediblər. İnsidentdə iştirak edən keçmiş deputatın yaxınları da yaralanıblar.

## “Avropa fil boyda faktı görməzdən gəlməklə öz imicinə ciddi xələl yetirir”



“Avropanın demokratiya, insan hüquq və azadlıqlarından danışan təşkilatları buyurub baxsınlar. Ermənistandakı biabırçılığı, hüquqi nihilizmi görsünlər və ortaya mövqe qoysunlar. İkili standartlarını tərgitsinlər, öz qətnamələrini yalnız özlərinə sərf edəndə, öz maraqları təmin olunanda qəbul etməsinlər. Anlasınlar ki, qeyri-obyektiv yanaşma ilə, dünyanın bir tərəfində qarışqa boyda faktı şişirdib fil eləmək, digər yanda isə fil boyda faktı görməzdən gəlməklə öz imiclərinə ciddi xələl yetirirlər. Mger Yegiazaryanın kimliyini, necəliyini təftiş etməyəcəm. İlanın qarasına da, ağı da... Amma adam aclıq aksiyası keçirib və həbsxanada vəfat edib”. Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.

Deputatın sözlərinə görə, Avropa Təşkilatları üçün bu cür məsələlər önəm kəsb etsə idi bir maraq göstərərdilər, siyasi qərar verərdilər: “Niyə vermirlər? Biz illərdir bu cür nüanslardan danışırıq, buna görə məlum təsisatları ikili standart yürütməkdə günahlandırırıq, qınayırıq. Ermənistanda despot rejimi fəaliyyət göstərir, burada illərdir qeyri-demokratik bir mühit var. Avropanın “demokratiya aşıqləri” ilk öncə həmin mühiti təftiş etsinlər, ondan sonra kiməsə məsləhət vermək həvəsinə düşsünlər”.

***Ceyhun Rasimoğlu***

## Paşinyanın əleyhdarları fəallaşıb



Yanvarın 29-da Ermənistanın baş naziri Nikol Paşinyanın əleyhdarı olan qüvvələr - keçmişdə iqtidarda olan Ermənistan Respublikaçılar Partiyasının və “Daşnaksütyun” partiyasının nümayəndələri yeni hökumətin siyasətinə etiraz əlaməti olaraq mətbuat konfransları keçiriblər. SİA erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistan Respublikaçılar Partiyasının mətbuat katibi, parlamentin keçmiş vitse-spikeri Eduard Şarmazanov Paşinyanın xarici və daxili siyasətini kəskin tənqid edib. Onun sözlərinə görə, baş nazir Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə danışıqlarda ATƏT-in Minsk Qrupunun həmsədrlərinə deyil, Azərbaycan Prezidenti İlham Əliyevin sözlərinə istinad edir. “Təsadüfi deyil ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin son aylar verdiyi bəyanatlarda xalqların öz müqəddəratını təyinetmə hüququna dair prinsiplər barədə bir söz də yoxdur”, deyən Şarmazanov iddia edib ki, Paşinyan Azərbaycanın dövlət başçısının siyasəti qarşısında aciz qalıb.

“Daşnaksütyun” partiyası bürosunun sədri Armen Rustamyan da keçirdiyi mətbuat konfransında yeni hökumətin danışıqlar prosesində Azərbaycana məğlub olduğunu vurğulayıb. O, Paşinyanı keçmiş prezident Levon Ter-Petrosyanın siyasi xəttini davam etdirməkdə və Dağlıq Qarabağ məsələsində Bakıya güzəştə getməkdə ittiham edib. Rustamyan əlavə edib ki, bütün müxalif siyasi qüvvələr baş nazirin təslimçi siyasətinə qarşı birləşməlidirlər. Mətbuat konfranslarında baş nazir Paşinyana qarşı onun parlament üzvlərini təyin etməsi barədə ittihamlar da səslənib.

SİYASİ RAKURS

# Əli Kərimli AXCP-ni işğal etdikdən sonra qarşısına bir məqsəd qoyub

## *Dövlətçilik maraqlarına zərbə vurmaqla, əsas xəyanətkar rolunu əldə saxlamaq*

***AXCP sədri Əli Kərimlinin yürütdüyü "siyasətin" hər bir addımında xəyanətin, satqınçılığın və dövlətçilik maraqlarını satmağın izləri dayanır və artıq bununla bağlı kifayət qədər sübutlar mövcuddur. Yeri gəlmişkən, hətta onun barədə özündə kifayət qədər həqiqətləri ehtiva edən "Yurd həqiqətləri" adlı kitab belə nəşr olunub.***

Həmin kitabda yazılan faktlar barədə "SƏS" qəzetində dəfələrlə silsilə təhlil yazıları dərc olunub, xalqa Ə.Kərimlinin çoxsaylı və gerçək sima(sız)ları barədə həqiqətlər çatdırılıb. Təəssüf ki, ortada onu ifşa edən minlərlə faktların olmasına baxmayaraq, o, nadir həyasızlıq nümunələrini ortalığa atmaqla, iqtidara iddialı olan "ana müxalifət" partiyasının sədri kimi bu və ya digər şəkillərdə özünü xalqa zorla (!) sırımaqda davam edir. Mitinq və aksiyalarında pafoslu çıxışları, qaragüruhçuluğu və haray-şivənçiliyi ilə ətrafına, uzağı, 2-3 min nəfər yığan Ə.Kərimli hələ də həmin gülünc iddialarında qalmaqda davam edir, hələ də elə sanır ki, bu minvalla - xəyanət və satqınçılq yolunu tutmaqla hakimiyyətə yiyələnə biləcək. Təəssüf ki, Kərimlinin ətrafına onun yalan və şirin vədləri ilə toplaşmış bir qrup gənc nəslin nümayəndələri də dərin qış yuxusuna gedərək, "liderləri" barədə müfəssəl məlumatlara malik olmadıqlarını nümayiş etdirirlər. Misal üçün, bilmirlər ki, onları yalnız öz məkrli məqsədləri üçün alət olaraq istifadə edən AXCP sədri son məqamda onları yarı yolda qoyub-qaçacaq. Məgər xalq bunu 2003-də, 2005-də və sonrakı illərdə görməyibmi? Əlbəttə ki, görüb və elə ona görə də, onun xəyanətkar olduğu qədər, həm də nə qədər hiyləgər olduğunu yaxşı qavrayır. Bu gün təhsillərini, gələcəklərini, hətta ailələrini belə ataraq, Ə.Kərimlinin "ətəyindən" yapışan bəzi gənclər yaxşı olardı ki, bir balaca geriyə dönüb-həyatları puç olmuş daha öncəki illərin kərimovçu gənclərinə nəzər salsınlar və görsünlər ki...

### Əli Kərimli AXCP-ni Sovet kəşfiyyatının planı ilə dağıdıb, Əbülfəz Elçibəy isə onu əbəs yerə "komsomulçu" adlandırmayıb

Beləliklə, Ə.Kərimlini ifşa edən faktlar, qeyd elədiyimiz kimi, kifayət qədərdir. Məhz həmin gənclər anlamalıdırlar və bilməlidirlər ki, AXC-nin mərhum lideri Əbülfəz Elçibəy onu elə-belə şəkildə "komsomolçu" adlandırmayıb. Çünki hələ AXC yarandığı dövrlərdən, yəni "Xalq Azadlığı Hərəkatı"ndan başlayaraq, Ə.Kərilmi SSRİ DTK-sına canfəşanlıqla işləyib. Daha sonra isə DTK-nın xələfi olan Rusiyanın məxfi orqanları ilə əməkdaşlıq edib. Əldə etdiyimiz faktlar da, bunu deməyə əsas verir. Yəni fakt budur ki, Ə.Kərimli AXCP-ni Sovet kəşfiyyatının planı ilə dağıdıb-parçalayıb.

Digər tərəfdən, Xalq Cəbhəsində Ə.Kərimli yüksəlişi separatçılıq və bölücülüyün güclənməsilə paralel baş verirdi. Çünki "Yurd" sədrinin bu gün də əsas müttəfiqləri separatçılığa meyilli şəxslərdən ibarətdir. Misal üçün, bu gün "Milli Şura"nın mitinqlərində başa gətirilən Eldəniz Quliyev ermənilərə satılmış Əlikram Hümbətovun sağ əli olub, üstəlik, separatçı "Talış-Muğan Respublikası"nın yaradılması vaxtı Əlikramın yanında olub. Bu gün "azadlıq" bağıran bir qrup gənc, ona görəmi Ə.Kərimlinin yanındadırlar ki, o, Ə.Hümbətovun sağ əli ilə - E.Quliyevlə çiyin-çiyinə Azərbaycanın dövlətçiliyi əleyhinə fəaliyyət göstərir?!



### Əli Kərimlinin hər zaman milli məfkurə və bütöv AXCP fobiyası olub

Bu arada, xatırlatmaq yerinə düşərdi ki, "Yurd"un AXCP-ni bitirmək üçün keçmiş Sovet kəşfiyyatının hazırladığı plan olması da, buradan görünür. Məsələn, ən maraqlı tərəfi də, Elçibəy vəfat etdikdən sonra AXCP-nin sədr postunu qəsb edən Ə.Kərimli ötən illər ərzində, bir dəfə də olsun ortaya siyasi iddia qoymayıb və heç vaxt "Yurd"un AXCP-dən ayrılmaq istəməməsi də bundan qaynaqlanırdı.

"Yurd", AXCP sədri Əbülfəz Elçibəyin ölümüylə cəbhəçilərə qarşı iti dişlərini göstərdi. Pul, hakimiyyət və xarici dövlətlərdəki qəyyumlarından aldığı əlahiddə imtiyazların verdiyi sərxoşluq "Yurd" sədri Ə.Kərimlinin gözlərini tamamilə kor etdi. Həmçinin, AXCP-ni parçalamaq müqabilində əldə etdiyi maddi gəlirlər onun fiziki və siyasi tərəfdən saxtakarlıqlarını üzə çıxardı. Çünki partiyanı parçalamaq planını başqalarının geyindirdiyi bir neçə maskayla həyata keçirirdi. "Yurd" bu işdə Kərimlinin əsas dağıdıcı qüvvəsiydi. AXCP-də Elçibəy tərəfdarlarına qarşı güclənən separatçılıq və cəbhəçiləri partiyadan kənarlaşdırmaq planlarının başını da "Yurd" sığallayırdı. 1993-cü ildən bu yana ölkədə keçirilən bütün seçkilərdə müxalifətin məğlubiyyətə uğraması, siyasi partiyaların yaratdığı blokların ("DUH", "SİDSUH", "DUBB", "Bizim Azərbaycan", "Azadlıq", "MKM", "İctimai Palata", "Milli Şura" və s.) fikir ayrılıqlarına görə dağılması işlərində, zaman-zaman mediada Elçibəyə qarşı aparılan təhqir kampaniyasında "Yurd" həmişə ön planda olub. Ə.Kərimlinin liderliyindəki bu separatçı qurum Milli Azadlıq Hərəkatının bütün dövlətçilik ideologiyasını darmadağın etdi. Şiddət və təhqir həmişə "Yurd"un AXCP-yə qarşı mübarizəsində bir nömrəli şüarı olub.

O da əbəs deyil ki, onu tanıyan bir çoxsları etiraf edirlər ki, Ə.Kərimlinin milli məfkurə və bütöv AXCP fobiyası olub. Məhz buna görə, çox asanlıqla kənar güclərin separatçı zehniyyətini beyin qəlibinə yerləşdirə bilir. Sonu sürətləndirən proses Ə.Kərimlinin kənar güclərin böyük diametrli dəstəyi sayəsində Elçibəy və tərəfdarlarını AXCP-dən kənarlaşdırmaq cəhdləri dövlətçiliyə xəyanət idi. Beləliklə, essentrik diktatorun şəxsi mənfəətləri üçün güclü bildiyi rəqiblərini zərərsizləşdirmək yolunda alternativ varianti yox idi. Çünki bütöv cəmiyyət daxilində Ə.Kərimlinin nüfuzlu olduğu çərçivə "Yurd"la məhdudlaşırdı. "Yurd"la təkbaşına Elçibəy tərəfdarlarının öhdəsindən gəlmək isə, mümkün deyildi. Nəticədə, o, Xalq Cəbhəsini siyasətdə passivləşdirmək üçün partiya xaricindəki güclərə öz pullu xidmətlərini təklif etdi. Ə.Kərimli illər ərzində partiya daxilindəki nizamı bu cür formalaşdırmışdı. Onun nümunəsi göstərir ki, hansısa çərçivədə təkbaşına rejim qurmaq və bunun təhlükəsizliyini təmin etmək üçün əlavə maskalara ehtiyac var. "Yurd" sədri heç vaxt AXCP-ni dağıtmağa başlayarkən, "Uçuruma doğru gedirsən!" xəbərdarlıqlarından dərs almadı. Son nəticədə isə, bu mesajlar onun AXCP-dəki sonunu sürətləndirən prosesə çevrildi.

### Məhz psixopat olması, Əli Kərimlini rəqiblərinə qarşı fərqli məcrada - mənəviyyatsızlıq, ləyaqətsizlik kimi mübarizə üsulu seçməyə sövq edir

Özünü həddən artıq dərəcə bəyənməsi, narsist xisləti Əli Kərimlini AXCP-ni darmadağın edən makinaya çevirmişdi. Peşəkar parodiyaçı olduğu üçün sönük görünüşünü gizlətmək üçün təyin edilmiş rolları ifa edirdi. "Yurd" sədri paranoyak, narsist tipə sahib olan və güc aclığı sindromundan əziyyət çəkirdi, bu gün də həmin xəstəlik onda mövcuddur. Məhz psixopat olması, Əli Kərimlini rəqiblərinə qarşı fərqli məcrada - mənəviyyatsızlıq, ləyaqətsizlik kimi mübarizə üsulu seçməyə sövq edir. Nəticədə, o, ötən illər ərzində Azərbaycan siyasətinin təhqir simasına çevrilib. Bu cəhdləri də Ə.Kərimlinin AXCP tarixində özünü "əbədi lider" etmək istəklərindən doğurdu. Nəticədə, o, əyləşdiyi kreslonu tərk etmək istəmirdi. Bunun üçün partiya nizamnaməsini dəfələrlə dəyişdi, digər müxalifət partiyalarını müxtəlif bəhanələrlə özündən uzaqlaşdırdı. Beləliklə, sədr postundakı mütləqiyyətini qorumaq üçün Kərimli partiya daxilində demokratik mühiti aradan qaldırdı. AXCP sədrinin "kredosu" belədir: "Hörmətsizlik etmək, hörmət görmək üçündür"...

Ə.Kərimli demokratiya məsələsində də, məhz bu cür demaqoqluq edir və "yurd"çuları qabağa verib səslərini qaldırmaqla özünə "demokratiya qulluqçusu" simasını qazandırmağa çalışır. Hətta müsahibələrinin birində "Azərbaycanda bütöv xalqın dəstəyinə sahib olan yeganə siyasətçi mənəm" deməklə, ən böyük usta yalançı simasını xalq qarşısında ifşa etdi. Əlbəttə, həmin an Kərimliyə "Siyasi iddiası olmayan partiya sədri özünü, necə xalq dəstəyinə sahib olan yeganə siyasətçi adlandıra bilər" sualını vermək olardı. Bir lider, həqiqətən, demokratiyaya inanırsa, yəni tutduğu posta gəldiyi kimi də, bir gün gedəcəyini qəbul edə bilirsə, haqqında edilən tənqidləri normal qarşılamalıdır. Lakin Ə.Kərimlidə bunun əvəzinə rəqiblərini təhqirlərlə zərərsizləşdirmək kimi qeyri-normal bir xislət formalaşıb və nəticədə bir daha bəlli olur ki, vaxtilə AXCP sədri Ə.Kərimlinin yanında olmuş cəbhəçilər indi ondan daha çox uzaqda gəzməyə çalışırlar. Çünki ölkə siyasətində yoluxucu və təhlükəli bir zərərverici virusun - Əli Kərimli virusunun gəzdiyini yaxşı bilirlər. Belə bir zərərli, yoluxucu virusa qarşı isə hər halda bir peyvənd tapılacaq. Özü də yaxın zamanlarda...

**Rövşən NURƏDDİNOĞLU**



# YÜRÜŞLƏRDƏN-HÜRÜŞLƏRƏ

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Deyişdim axı, dövlət başçısının bütün şəhid ailələrinə aid edilən birdəfəlik müavinətlərin verilməsi qərarından sonra, destruktivlər, dağıdıcılar, anarxistlər, siyasi mühacirlər və bütün bunların vahid ad altında - onun-bunun altına yıxılıb, siyasi fahişəlik edənlər dərhal ağız-ağıza verib, hürüşməyə başlayacaqlar. Mitinqlərdən bir şey çıxmadığını görüb, yürüşlərdən-hürüşlərə keçiblər. Birinci dəfə deyil ki!***

Elə bundan öncələr də, dövlət rəhbərinin verdiyi müvafiq fərman və sərəncamlarının mürəkkəbi qurumamış, başda Əli Kərimli olmaqla, onun həndəvərində quyruq bulayıb-qısanlar dərhal hərəkətə keçir, istər sosial şəbəkələrdə, istər aksiyalarda "millət" və "dövlət" bağırmalarına rəğmən, məhz xalqın, dövlətin rifahı üçün atılmış addımlardan açıq-aşkar, hətta ermənilərdən də betər şəkildə qıcıqlanırlar. Buna isə düşmənçilikdən başqa ad vermək də olmaz. Çünki bir millətin səmərə görməsi üçün, cüzü də olsa, iş görməkdir. Şəhid ailələri üçün atılan hər hansı müsbət addıma yalnız düşmən ağız əyər. Bunlar da, gözlənildiyi kimi, əydilər ağızlarını, hələ bir az da o tərəfə keçərək, dövlətin bu addımını özlərinin "qələbəsi" kimi təqdim etmək qədər arsızlıqla, həyasızlıqla, idbarlıqla. Nə deyəsən? Axı, alıblar qırmızı və sərt şapalağa layiq peysərlərinə aşkar şərəfsizliklərini...

***Qayıdaq Ə.Kərimliyə, çünki "Balıq başından iylənər" el məsəlini xatırlayaraq, qəti şəkildə deyə bilərik ki, belə şərəfsizlik edənlərin baş siyasi fahişəsi də, məhz odur - Ə.Kərimli!***

Demək, axecepeçilərin baş fahişəsinin ötən gecə gözünə yuxu getməyib və dərhal qalxıb-oturub çox sevdiyi klaviaturasının arxasında, daxilindəki tükənməz fahişəlik ehtirasını sosial şəbəkə vasitəsi ilə söndürməyə çalışıb. Sən demə, dövlət xalqından "qorxurmuş" və bu da "faydalı" bir zadıymış-filan... Yəni demək istəyib ki, guya hakimiyyət bunların haray-şivənindən "qorxaraq", sözügedən addımları atır (?!). Nə deyəsən axı, bu qırmızı gədaya? Bu gəda hələ də qanmır ki, hakimiyyət xalqdan "qorxmur", əksinə, xalqına xidmət edir, xalqının dərdinə-sərinə yanır, xalqı üçün bütün imkanlardan istifadə edir və ona görə edir ki, XALQ HAKİMİYYƏTİN MƏNBƏYİDİR! Qanmır bunu, qandırmır və qanmağa, dərk etməyə əqli də imkan vermir. Nə etsin, illərdir rusun, farsın, erməninin, ingilisin, amerikalının, norveçlinin altına yıxılıb, siyasi ehtiraslarını vəhşicəsinə öldürən bir nakəsdən başqa nəyi gözləmək olar axı?!

Deyir (yazır) ki, dövlət, 19 yanvar mitinqindən sonra bu qərarı verdiyinə görə "geri çəkilib", yaxud Azərbaycan xalqının (???!!!- Pul müqabilində mitinqə qatılan 2800-3000 nəfər qaragüruhçunu, şəkil çəkdirib, ondan arayış alaraq, Avropaya "siyasi mühacir" statusunda getmək istəyən tör-töküntüləri xalqla səhv salır-R.N.).

***"26 yanvarda nümayiş etdirməyə hazır olduğu daha kütləvi etirazından" dolayı bu qərarı veribmiş...***

Əslində, ortada təəccüblənəcək heç nə yoxdur. Məgər Ə.Kərimlidən başqa hansı addımı gözləmək olardı ki? Hakimiyyətin uğurlarını "müxalifətin qələbəsi" kimi zorla xalqa sırımaq yalnız bu siyasi moşennikdən çıxar. İndi bu komsomolçu gəda və Avropadakı sülüngülər sanırlar ki, mitinqlər etməklə, "hakimiyyət xalqla hesablaşacaq". Ona görə də, söhbətinin sonunu gətirib-çıxarıb növbəti mitinqlərə, halbuki hakimiyyət xalqla hesablaşmır, xalqla bir yerdə bu qələbələri qazanır. Həmin qələbələri ki, nəticədə, yürüşlərdən hürüşlərə keçən cılızlar ağız-ağıza verib, öz havlamalarından həzz alırlar.

# Müxalifət düşərgəsi saatlı bombaya bənzəyir

*Əli Kərimlinin mitinqə gələnləri cinayətkar adlandırması "Milli Şura" daxilində yeni qarşıdurmalar yaradıb*

**Satmaq və satılmaq dağıdıcı müxalifət partiya sədrlərinin həyat tərzinə və siyasi fəaliyyətlərinin başlıca prinsipidir desək, səhv etmərik. Çünki milli və dövlətçilik maraqlarını satmaqla əldə etdikləri qrantlar hesabına xarici ölkələrdə mülklər alan, övladlarını müxtəlif xarici ölkələrin təhsil ocaqlarında oxutduran Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri üçün artıq siyasət mənasız və əhəmiyyətsiz formaya çevrilib.**



Bu baxımdan da, fəaliyyətlərini siyasət pərdəsi altında ört-basdır etməklə, daha çox qrant almağa yönəldiblər. Deməx olar ki, hazırkı məqamda müxalifət üçün kimə və hara işləmələrinin fərqi yoxdur. Halbuki 5-6 il öncəyə qədər, AXCP və Müsavat yetkililəri xarici maraqlı dairələrlə iş birliyi qurmaq məsələsində seçim edir, kiminlə tərəfdaş olduqlarının fərqinə varırdılar. İndi isə, fərq qoyulmadan, pul verən, qrant ayıran istənilən fond və təşkilatlarla iş birliyi qurub, əməkdaşlıq edirlər. Səbəb də, ortaya yeni qüvvələrin çıxaraq Qarabağ adı altında mitinqlər təşkil etmələri, yığıncaqlar keçirib pafoslu açıqlamalar verməsləridir. Baxmayaraq ki, Pənah Hüseynin, İskəndər Həmidovun, Əvəz Zeynallının, Akif Nağının və Tural Abbaslının təşkil etdikləri Qarabağla bağlı mitinqlərə qatılanların - onların mövqeyini dəstəkləyənlərin sayı kifayət qədər azdır. Səbəb də, insanların sözügedən şəxslərin məkrli niyyətlərinin nədən ibarət olmasını bilmələridir.

**Qurban Məmmədov Əli Kərimlini zay məhsul hesab edir**

Bir sözlə, yeni qrant əldə etmək iddialarında olan şəxslərin meydana çıxması Müsavat və AXCP funksionerlərini ciddi narahat edir. Ən azı, ona görə ki, qrantların həcmi azala və qarşılıqlı əməkdaşlıq prinsiplərinə görə, qərəzli təşkilatların məkrli planlarını həyata keçirə bilməyəcəklər. Həm də, istiqamət dəyişə, təmsilçilər P.Hüseyn və İ.Həmidov ola bilər. Bu isə Ə.Kərimlinin, A.Hacılının xaricdən maliyyə vəsaitləri əldə etmək planlarının üstündən xətt çəkilməsi deməkdir. Bu baxımdan, hər vəchlə çalışırlar ki, əqidə dostlarını sıxışdırsınlar və əski mövqelərinə qaytarsınlar. Buna necə nail olacaqlarını demək, hələ ki, çətin olsa da ortada olan fakt yalnız ondan ibarətdir ki, dağıdıcı müxalifətin əsas satqın və xəyanətkar formatı olan "Milli Şura"da ağır proseslər yaşanmaqdadır. Xüsusi ilə də, uğursuzluqla nəticələnən 19 yanvar mitinqinə cəhddən sonra, bu başıbəlalı qurum daxilində gərginlik özünün pik nöqtəsinə yüksəlib. AXCP sədri Əli Kərimlinin Sevinc Osmanqızının verilişində mitinqə gələnləri cinayətkar adlandırması "Milli Şura" daxilində qarşıdurmaları bir qədər də gərginləşdirib. Qurumun koordinasiya şurasının üzvləri Tofiq Yaqublu, Oqtay Gülaliyev, Elşən Həsənov, Gültəkin Hacıbəyli, hətta Cəmil Həsənli Ə.Kərimlini, axmaq fikirlər söyləməklə, mitinq iştirakçılarına hörmətsizlik etməkdə günahlandırıblar. T.Yaqublu bildirib ki, Ə.Kərimli məsuliyyətsiz açıqlaması ilə növbəti mitinqlərə kifayət qədər az sayda insanın gəlməsinə səbəbkar olacaq: "Özünə hörmət edən kəs, bundan sonra mitinqlərə qatılmaz. Ə.Kərimli səhvə, yanlışlığa yol verdi. Hesab edirəm ki, bundan sonra onunla bir sırada siyasi mübarizə aparmaq da düzgün deyil".

Xaricdəki "söyüş qrupu"nun fəallarından olan Qurban Məmmədov isə, Ə.Kərimlini zay məhsul adlandırıb. Bildirib ki, dostlarına, əqidə yoldaşlarına şər və böhtan atmasının nəticəsidir ki, müxalifət formalaşa və hədəflərinə çata bilmir: "Bundan sonra mitinqlər alınmayacaq. Cinayətkar damğası ilə damğalanan insan növbəti təhqirli söz və ifadələrə məruz qalmaq istəməz. Ona görə də, müxalifətin mitinq keçirmək arzusu gerçəkləşməyəcək".

Göründüyü kimi, başlarından böyük iddialar müxalifət liderləri üçün ağır siyasi məğlubiyyət acısına çevrilir. Həm də, qrant almaq iddialarına ciddi zərbə olur. Bundan sonra "Milli Şura" və bu qurumun təmsilçisi rolunda çıxış edən AXCP sədri Ə.Kərimli çətin ki, mitinq keçirmək və ya başqa hansısa iddialarda olsunlar və yaxud çıxışlar etsinlər. Yaxşı deyiblər, "sirkə nə qədər tünd olsa, öz qabın çatladar". Ə.Kərimli də hikkəsi və təkəbbürü ilə, özü ilə yanaşı, Sorosun uşaqlarının yığnağı olan "Milli Şura"nı məhv etdi.

***İ.ƏLİYEV***

# "Nar" Zərdabda yeni rəsmi mağazasını təqdim etdi




"Nar" bölgələrdə yaşayan sakinlərin rahatlığını və onlara göstərilən xidmət səviyyəsini daha da yüksəltmək məqsədilə mağazalarının sayını artırmaqdadır. Mobil operator növbəti rəsmi və yeni konseptə uyğun mağazasını Zərdab rayonunda təqdim edib. Müasir avadanlıqlarla təchiz edilmiş mağaza Zərdab rayonu, Azərbaycan prospektində yerləşir. Özünün müştəri yönümlülük və davamlı təkmilləşmə dəyərlərinə sadiq qalan "Nar", yeni dükanda müxtəlif təkliflərlə müştərilərinə xidmət göstərəcək. Mağazada müştərilərə nömrələr üzərində müxtəlif əməliyyatların həyata keçirilməsi, satışı, internet paketlərinin alışı, telefonların satışı ilə yanaşı, diler əməkdaşları tərəfindən digər yüksəkkeyfiyyətli müştəri xidmətləri göstəriləcək.

Yeni dükanın təqdimatı ilə əlaqədar olaraq yanvarın 29-u və 30-da hər bir müştəriyə "Nar" nömrə hədiyyə ediləcək. Bundan başqa, telefon və aksesuar alan alıcılara da hədiyyələr veriləcək.

Qeyd edək ki, "Nar" paytaxtla yanaşı, ölkənin regionlarına xüsusi diqqəti ilə seçilir və bölgələrdə yaşayan abunəçilərə yüksəkkeyfiyyətli mobil rabitə xidməti göstərir. Bu çərçivədə "Nar" xüsusi olaraq Azərbaycanın müxtəlif bölgələri üçün yaradılmış və abunəçilərə yaşadıqları bölgələrdə dəqiqəsi cəmi 1 qəpiyə danışmaq imkanı vermiş "Yerlim" tariflər toplusunu təqdim edib. Bu tariflə hər kəs yaşadığı bölgədə doğmaları, dostları, bir sözlə, bütün yerlilərinə dəqiqəsi cəmi 1 qəpiyə zəng etmək fürsəti qazanıb.

"Nar" mağazalarının ünvanı və xidmətləri haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# "Avropa Parlamenti baş verən hadisəni niyə görməməzliyə vurur?

"Tanınmış Qeyri-Hökmət Təşkilatının ( QHT ) sədri Niyaməddin Orduxanlı Avropa Parlamentinə və Avropa Təhlükəsizlik Əməkdaşlıq Təşkilatına (ATƏT) rəsmi müraciət ünvanlayıb". Məsələ ilə bağlı SİA-ya açıqlama verən QHT sədri bildirib ki, beynəlxalq təşkilatlara müraciət etməsinin əsas səbəbi Ermənistan Respublikasının "Nubarasen" təcridxanasında saxlanılan Haynews.am saytının rəhbəri və "Erməni Qartalları: Vahid Ermənistan" partiyasının sədr müavini, siyasi məhbus Mger Yegizaryan 52 günlük açlıq aksiyasından sonra vəfat etməsidir: "Təşkilatımın adından Avropa Parlamentinin nümayəndələrinə müraciət etdi ki, Ermənistan Respublikasının "Nubarasen" təcridxanasında saxlanılan Haynews.am saytının rəhbəri və "Erməni Qartalları: Vahid Ermənistan" partiyasının sədr müavini, siyasi məhbus Mger Yegizaryan 52 günlük açlıq aksiyasından sonra vəfat edib. Bu şəxs siyasi fəaliyyətinə görə qondarma ittihamlarla həbs edilib və buna etiraz olaraq keçən il dekabrın 5-də aclıq aksiyasına başlayıb. Ermənistanda siyasi hakimiyyət dəyişəndən dərhal sonra yüzlərlə siyasi fəal, partiya üzvləri, keçmiş hərbiçilər həbs olunub. Ölkənin keçmiş prezidenti Robert Koçaryan hal-hazırda həbsdədir. Ermənistanda yaşanan proseslər Avropa Parlamenti (AP) kimi qurumların diqqətindən kənarda qala bilməz.



Demokratik ənənələri, insan hüquqlarını əsas meyar tutan Avropa Parlamenti baş verən hadisəni sükutla qarşılamamalıdır. Xatırlatmaq istərdik ki, Avropa Parlamenti yanvar ayının 17-də təcili qaydada azərbaycanlı bloqçu Mehman Hüseynovun işi ilə bağlı Azərbaycanda qətnamə qəbul etmişdi. Orada Mehman Hüseynovun guya açlıq elan etdiyinə, bu şəxsə qarşı guya yenidən ittiham irəli sürüldüyünə etiraz ifadə olunurdu. Halbuki, bu iddiaların heç biri tam təsdiqini tapmadı və Mehman Hüseynova qarşı da heç bir yeni ittiham irəli sürülmədi. Təcridxanada mübahisə etdiyi şəxslə barışdı və məsələ müsbət həll olundu. Avropa Parlamenti Mehman Hüseynov məsələsini araşdırmadan dərhal Azərbaycan qarşı qətnamə qəbul etdi. Bu gün Azərbayan ictimaiyyəti, vətəndaş cəmiyyəti institutları Ermənistanda aclıqdan ölən siyasi məhbusla bağlı Avropa Parlamentinin analoji addımı ataraq obyektivlik naminə Ermənistana qarşı dərhal qətnamə qəbul edəcəyini gözləyir. Əks halda Azərbaycan xalqı Avropa Parlamentinin qərəzli, demokratik prinsiplərdən uzaqlaşmış, ikili standartlarla fəaliyyət göstərən qurum kimi qəbul edəcək. Parlamentarilər Ermənistanda siyasi məhbusun ölümünü sıradan bir hadisə kimi qiymətləndirməməlidir. Sizə sual edirik: Niyə susursunuz?! Azərbaycanı olmayan hadisələrdə ittiham edən, hədəf seçən və ona qarşı yubanmadan qətnamə çıxaran Avropa Parlamenti Ermənistanda baş verən daha ağır hadisəni niyə görməməzliyə vurur? Hər bir parlamentari üzvülərini post sovet ölkələrinə münasibət də ayrıseçkiliyə son qoymağa çağırıram! Bərabər hüquqli münasibətin olmasına əməl etməyə dəvət edirəm! Bütün bunlara son qoyulmalıdır! Müsəlman ölkələrinə ədalətli yanaşmağı və Avropada islamafobiyanın yayılmamasına imkan verməməlisiniz! Bu, bir insanlıq borcudur!".

Niyaməddin Orduxanlının sözlərinə görə, müraciət ingilis dilinə tərcümə olunaraq, hər iki qurumun rəsmi elektron ünvanlarına göndərilib: "Bizim təşkilatın bu sahədə təcrübəsi var. Bu günə qədər Azərbaycanın dövlət və milli maraqlarını, həmçinin Qarabağ məsələsinə dair bir necə rəsmi müraciətmiz olmuşdu. Hətta Avropa Parlamentinin bir necə deputatı rəsmi cavab məktubu da göndərmişdi. İnanıram ki, bu dəfə də beynəlxalq qurumlar və parlament üzvüləri bizim təşkilatın rəsmi müraciətinə cavab verəcəklər".

***Ceyhun Rasimoğlu***

# Repressiyaya məruz qalan qadınlarımız

***1937-1938-ci illərdə vəzifədə olan qeyri-millət nümayəndələrinin “ciddi” səyi nəticəsində Azərbaycanda dərin zəkaların, düşünən beyinlərin məhvinə yönələn repressiya və deportasiya qurbanlarının sırasında qadınlar da kifayət qədər idi.***

Samir Mustafayev yazır:” Bu sırada Nazlı Tahirova-Nəcəfova, Bakıda ilk “Şərq Konservatoriyası”nın yaradıcısı Xədicə Qayıbova, Tibb İnstitutunun müəllimi Mədinə Qiyasbəyli və başqaları da var idi. Azərbaycan sevgisinə görə güllələnən, həbsə atılan, Sibirə ölüm düşərgələrinə sürgün edilən azərbaycanlı ziyalılarla yanaşı, onların xanımları da min bir məşəqqətlə üz-üzə qaldılar.

Bununla belə, bəhs olunan dövrdə və daha sonrakı mərhələlərdə Azərbaycanın Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Xanımana Əlibəyli, Xalidə Hasilova, Əzizə Cəfərzadə və bu kimi istedadlı qadın şair və yazıçıları, Şərqin ilk opera yazan qadın bəstəkarı Şəfiqə Axundova, Mərziyyə Davudova, Münəvvər Kələntərli, Leyla Bədirbəyli, Şövkət Ələkbərova, Tükəzban İsmayılova, Sara Qədimova kimi sənətkarlar da yetişdi.

1941-l945-ci illərdə 50 milyon insanın həyatına son qoymuş İkinci Dünya müharibəsi də Azərbaycan qadınlarının həyatında ağır bir sınaq dövrü oldu.

Həyat yoldaşlarını, qardaşlarını, oğullarını müharibəyə yola salan Azərbaycan qadınları arxa cəbhədə gecəni-gündüzə qataraq, ordunu lazımi silah-sursat, geyim və ərzaqla təmin edirdilər. O illərdə Azərbaycan qadını, hətta barmağındakı nişan üzüyünü belə ordudan əsirgəmirdi.

Müharibə illərində Bakıda 130-dan çox növdə silah və döyüş sursatı hazırlanırdı. Müəssisələrdə və kolxozlarda işləyənlərin təxminən 70%-i qadınlar idi.

Faşizmə qarşı mübarizədə şəxsi vəsaitlərdən müdafiə fonduna 15 kq qızıl, 952 kq gümüş, 320 mln. rubl verilmişdi. Cəbhəyə 1,6 milyondan çox zəruri mal və 125 vaqon isti geyim göndərilmişdi. Yalnız Sankt-Peterburq üçün 1942-ci ilin yayına qədər Bakı müəssisələri tərəfindən 2 vaqon qara kürü, 40 ton meyvə qurusu, 12 vaqon digər qida məhsulları və tibbi ləvazimatlar yola salınmışdı. Ölkə hospitallarında cəbhədə yaralanmış 440 min nəfər müalicə olunurdu.

İkinci Dünya müharibəsi illərində arxa cəbhədə gecə-gündüz həm qadın, həm də ənənəvi “kişi sahəsi”ndə kişi məşğuliyyətində çalışan qadınlarımızın bədii obrazı, qadının “kişi dözümü”nün, cəsurluğunun, ağrılı günlərdə keçirdiyi mənəvi-psixoloji və fiziki yaşantılarının bədii ifadəsi Azərbaycan yazıçısı İsa Hüseynovun yaradıcılığında mühüm yer tutur. Yazıçı cəmiyyət həyatında qadınların kişilərlə bərabər sosial statusda iştiraka tamamilə haqlı olduqlarını təsirli və inandırıcı bədii boyalarla təqdim edir.

Azərbaycan qadınları və qızları arxa cəbhədə kişilərin gördüyü ağır işlərin öhdəsindən gəldikləri kimi, ön cəbhədə də torpaqların faşistlərdən azad edilməsində böyük rəşadət və qəhrəmanlıq göstərirdilər. Onların sırasında Dürrə Məmmədovanın, Adilə Əliyevanın, Təzəxanım Əzimovanın, Asiya Yusifovanın, İrina Qədimovanın, Züleyxa Seyidməmmədovanın və başqalarının adlarını çəkmək olar...

Belə qəhrəman Azərbaycan qadınlarından biri də İkinci Dünya müharibəsində Qafqazda, Cənubi Avropada və Yaxın Şərqdə ilk qadın təyyarəçi olan azərbaycanlı Leyla Məmmədbəyova idi.

Leyla Məmmədbəyova sənət təhsilini Bakı aeroklubunda almış və ilk uçuşunu 1931-ci ildə yerinə yetirmişdir. Təhsilini 1932-ci ildən Moskvada davam etdirən L.Məmmədbəyova 1933-cü il martın 17-də Moskvanın Tuşino aerodromunda U-2 təyyarəsindən paraşütlə atlanaraq Nina Kamnevadan sonra Sovet İttifaqının ikinci qadın paraşütçüsü olmuşdur. 1934-cü ildə Cənubi Qafqaz respublikaları arasında keçirilən paraşütçülər yarışında birinci yeri tutmuş və 1941-ci ilədək, artıq aviasiya mayoru rütbəsini almışdı. Sonralar sənətini Bakı aeroklubunda müəllim kimi davam etdirmişdi.

6 uşaq anası L.Məmmədbəyovanın yetkinlik yaşına çatmamış 4 övladı olduğuna görə İkinci Dünya müharibəsində hərbi təyyarəçi kimi iştirakına icazə verilməsə də, o, müharibə illərində yüzlərlə desant və 4 min paraşütçü hazırlayıb cəbhəyə yollamışdır. Onun tələbələri arasında nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Leyla Məmmədbəyovanın böyük oğlu Firudin İkinci Dünya müharibəsində, kiçik oğlu Xanlar isə Qarabağda vuruşmuşdur.

Digər həmyerlimiz - Sona Nuriyeva da ilk təyyarəçi qadınlardan biri olmuşdur. O, Bakı təyyarəçilər klubunda yetişmişdir. S.Nuriyeva 1945-ci ildən beynəlxalq hava xəttində (Almaniya, Bolqarıstan, Yuqoslaviya, Polşa və s.) qulluq etmiş, 1949-1968-ci illərdə Zabrat aeroportunda işləmişdir. Keçmiş SSRİ Ali Sovetinin deputatı seçilmiş, orden və medallarla təltif edilmişdir.

Müharibə illərində digər bir qadın qəhrəmanımız da gəmi kapitanı Şövkət Səlimova idi. O, 1940-cı ildə Bakı Dənizçilik Məktəbini bitirmişdir. İkinci Dünya müharibəsində Xəzər Dəniz Gəmiçiliyində kapitan müavini və kapitan işləmişdir. Müharibə dövründə bütün dünya üzrə iki qadın gəmi kapitanından biri idi.

Azərbaycan qadını bu əzmkarlığını, mətanətini, öncüllüyünü müharibədən sonra əmək cəbhəsində də parlaq örnəklərlə nümayiş etdirirdi.

Belə nümunələrdən biri 1940-cı il mart ayının 1-də Zaqatala rayonunun Tala kəndində anadan olmuş Sevil Qazıyevanın qısa, lakin son dərəcə şərəfli ömürlüyüdür.

Onun atası Həmzət kişi müharibədən bir ayağını itirərək dönmüşdü. Sevil Qazıyeva gündəliklərinin birində yazır: “Uşaq olanda tez-tez atamdan soruşurdum ki, niyə hamının iki ayağı olduğu halda, sənin bir ayağın var? Atam həmişə bu sualı eşidəndə, gözlərini səmaya zilləyib, dərin fikrə dalardı. Böyüyüb boya-başa çatdıqdan sonra hər dəfə atama verdiyim bu sualı xatırlayanda, öz-özümə xəcalət çəkir, onun qəlbinə dəydiyim üçün özümü danlayırdım”.

Sevil Qazıyevanın ən böyük arzusu həkim olmaq idi. 1958-ci ildə orta məktəbi bitirən Sevil sənədlərini indiki Azərbaycan Dövlət Tibb Universitetinə versə də, müsabiqədən keçə bilmir. Valideynlərinin etimadını doğrultmadığı üçün kəndə qayıtmaqdan imtina edən Sevil elə həmin il sənədlərini Bakıdakı 5 nömrəli sənət məktəbinə verir. Burada mütərrib peşəsinin sirlərini öyrənən Sevil Qazıyeva həm də teatr dərnəyində fəaliyyət göstərir. Ehtiyat Əmək Qüvvələrinin Mədəniyyət Evinin üzvü olan Sevil əvvəlcə S.S.Axundovun “Laçın yuvası” pyesində Pərican, sonra isə C.Cabbarlının “Sevil” pyesində Sevil obrazlarını yüksək səviyyədə canlandıraraq, xüsusi istedad sahibi olduğunu nümayiş etdirə bilir. Sevil Qazıyevanın həmin illərdə mətbuatda dərc olunan şeirləri də bunu sübut edir.

Sov.İKP Mərkəzi Komitəsinin dekabr (1959-cu il) plenumu Sevilin həyatında ciddi dəyişikliyə səbəb olur. Mətbuat vasitəsilə plenumun materialları ilə tanış olan mütərrib-tələbə özbək qızı Tursunoy Axunovanın maşında təkbaşına yüz adam qədər pambıq yığdığını öyrənəndə, sürücü-mexanik olmağa qərar verir. Sevil bu qərarını rəfiqəsi Diləfruz Ocaqquliyevaya bildirəndə, o da həvəslə sürücü-mexanik olmağa razılaşır. Ertəsi gün Bakı 5 saylı sənət məktəbinin 4 tələbəsi - Sevil Qazıyeva, Məmləkət Tağıyeva, Solmaz Qurbanova və Diləfruz Ocaqquliyeva Azərbaycan LKGİ Mərkəzi Komitəsinin katibi Məsud Əlizadəyə məktub yazıb, ondan Bakı şəhərində qızlar üçün sürücü-mexanik kurslarının açılmasını xahiş edirlər. Sevil Qazıyevanın və rəfiqələrinin bu təklifi respublika rəhbərliyi tərəfindən dəstəkləndiyi üçün bir müddət sonra Binədəki kənd təsərrüfatını mexanikləşdirmə məktəbində sürücü-mexanik hazırlayan kurs açılır. Sevil və rəfiqələri bu kursda sürücü-mexanik peşəsinin sirlərini öyrənməyə başlayırlar.

Samir Mustafayevin fikrincə, 1960-cı ilin yayında Sevil və rəfiqələrini indiki Beyləqan rayonundakı 5 nömrəli pambıqçılıq sovxozuna göndərirlər. İstehsalat təcrübəsi zamanı Sevil maşınla 97 ton pambıq yığır. Binədəki kənd təsərrüfatını mexanikləşdirmə məktəbini bitirəndən sonra Sevil Qazıyeva könüllü şəkildə Beyləqan rayonuna işləməyə gedir. 1961-ci ildə Özbəkistanda Sovet pambıqçılarının ümumrespublika toplanışında Azərbaycan nümayəndə heyətinin tərkibində Sevil Qazıyeva da iştirak edir. Sevil Özbəkistanda olarkən, məşhur Sovet pambıqçısı Tursunoy Axunovanın iş təcrübəsi ilə yaxından tanış olur. O, Daşkənddən qayıtdıqdan sonra Beyləqanda Tursunoy Axunova kimi kompleks-briqada yaradır və həmin briqadaya başçılıq edir.

1962-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Mexanizasiya fakültəsinə daxil olan Sevil Qazıyeva işləyə-işləyə həm də qiyabi təhsil alır. 1962-ci ildə onu Azərbaycan LKGİ-nin 23-cü qurultayına nümayəndə seçirlər. Qısa müddət ərzində, Azərbaycanın adlı-sanlı pambıqçılarından birinə çevrilən Sevil Qazıyeva 1962-ci ildə öz maşını ilə 190 ton pambıq yığır. Sevilin başçılıq etdiyi briqada həmin il hər hektardan 30 sentner pambıq götürdüyü üçün onu Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edirlər.

Sevil Qazıyeva 1963-cü ildə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilir. Deputat seçilməsi Sevilin qayğılarını daha da artırır. O, eyni vaxtda həm başçılıq etdiyi briqadanın işlərinə nəzarət edir, həm də seçicilərinin problemləri ilə məşğul olur. Tələbə-deputat boş vaxtlarında imtahanlara hazırlaşır. Bütün imtahanlardan əla qiymətlər aldığı üçün müəllimləri onu əyani şöbənin tələbələrinə nümunə göstərirmişlər.

Sevil traktorçu, pambıqyığan kombaynın mexanik-sürücüsü, Mil düzündəki sovxozlardan birinin traktorçular briqadiri işləmişdir. Onun çağırışı ilə 600 nəfərdən çox qız mexanizator peşəsini seçmişdir. O, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Texniki təhlükəsizlik qaydalarına əməl etmədiyi üçün Sevil Qazıyeva gənc yaşlarında faciəli surətdə həlak olmuşdur. O, ölümündən sonra Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi cəmiyyət həyatının digər sahələrində olduğu kimi, qadın problemlərinin həlli, gender bərabərliyinin təmin edilməsi, qadınların inkişafı, müxtəlif sferalarda onların potensialının üzə çıxarılması istiqamətində də böyük canlanma yaratdı.

Heydər Əliyev qadınlara diqqət və qayğı göstərərək, onları bilik və bacarıqlarına, istedad və intellektlərinə görə irəli çəkməyə, yüksək vəzifələrdə onlara etimad göstərməyə başladı. O dövrdə bir çox rayonlara rəhbərlik qadınlara tapşırıldı. Nazir və nazir müavinləri arasında neçə-neçə qadın var idi. Respublikamızın tarixində, ilk dəfə olaraq, ali məktəblərə qadın rektorlar təyin edildi. Neçə-neçə qadın Sosialist Əməyi Qəhrəmanı, “Qəhrəman ana” fəxri adları, orden və medallarla təltif olundu. Bütün bunlar ölkə başçısının konkret fərdlərin timsalında, ümumilikdə, Azərbaycan qadınına göstərdiyi sonsuz diqqət və qayğının ifadəsi idi.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# Planşet və televizorlar uşaqlarda inkişafı ləngidir

Televizor ekranı və ya planşet kompüterinin qarşısında çox vaxt keçirən uşaqlar problemləri çətin həll edir, öz həmyaşıdları ilə pis ünsiyyət qurur və 5 yaş dövrü üçün inkişaf vərdişlərini daha zəif nümayiş etdirirlər.



AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu qənaətə kanadalı ekspertlər gəliblər. Kiçik yaşlı uşaqların valideynləri özlərinə az da olsa vaxt qazanmaqdan ötrü körpəsini televizor və ya planşet kompüterinin qarşısına qoymaq fürsətindən istifadə etməyə çox həvəsli olurlar. Məlumdur ki, uşaqlar onların valideynləri ev işləri görərkən və yaxud dostları ilə ünsiyyətdə olarkən sözün əsl mənasında ekrana "yapışırlar". Tədqiqatlar sübut edib ki, bu üsul uşağın inkişafında mənfi nəticələrə gətirib çıxarır. Onun müəllifləri ünsiyyət, problemlərin həlli və digər şəxsi inkişaf vərdişlərini 2, 3 və 5 yaşında olan 2400 uşaq üzərində qiymətləndiriblər.

Müəyyən edilib ki, vaxtının çoxunu ekran qarşısında keçirən 2 yaşınadək uşaqlarda artıq 3 yaşında olarkən ləng inkişafın əlamətləri görünür. Televizor ekranlarının və planşet kompüterlərinin qarşısından çəkilməyən 3 yaşlı uşaqlar artıq 5 yaşında öz yaşıdlarından inkişafda gözəçarpacaq dərəcədə geri qalıblar. Bununla əlaqədar Kalqari Universitetindən olan tədqiqatçılar azyaşlıların valideynlərini öz həyatlarını bəsitləşdirməməyə, ünsiyyət vasitəsilə və təkcə əyləncəni deyil, həm də təlimi nəzərdə tutan müxtəlif fəal oyunların köməyi ilə uşağın inkişafında şəxsən iştirak etməyə çağırırlar.

Bununla yanaşı, tədqiqatçılar bəzi qadcetlərin uşağın təlimi üçün yüksək potensiala malik olmasını etiraf edirlər. Lakin valideynlər həmin cihazlardan heç də bu məqsədlər üçün istifadə etmirlər. Uşaqlar əksər hallarda cizgi filmlərinə baxır və ya onların diqqətini ifrat dərəcədə çəkən hansısa oyuncaqla oynayırlar. Bu, uşaqların bu və digər vərdişlərinin inkişafına kömək etmir.

# Mühəndislər elektriksiz işləyən kondisioner yaradıblar

"SoundEnergy" startapının mühəndisləri sənaye istehsalının istisi, yaxud günəş enerjisi əsasında işləyən və elektrik enerjisi tələb etməyən kondisioner yaradıblar.



AZƏRTAC "high-tech.fm" saytına istinadla xəbər verir ki, qurğu ekologiyaya dəyən ziyanı və binaların soyudulması xərclərini azaltmağa imkan verir.

Beynəlxalq Energetika Agentliyinin məlumatına görə, 2050-ci il üçün təqribən 6 milyard kondisioner dünyanın ümumi elektrik enerjisinin 37 faizi ilə işləyəcək. Belə artım Çin və Hindistan bazarlarının sürətlə inkişaf etməsi ilə bağlıdır. Bu ölkələrin vətəndaşları varlanır və havanın temperaturunun qlobal miqyasda artması şəraitində daha çox kondisioner alırlar. Bundan əlavə, mövcud kondisionerlər karbon qazı buraxır və qlobal istiləşməni sürətləndirən soyuducu amillərdən istifadə edir. Şirkət kondisionerlərin ilk partiyasını artıq bir qurğu üçün 50 min dollar qiymətinə satıb. "SoundEnergy" nümayəndəsinin sözlərinə görə, istehsal artdıqca, qurğunun qiyməti ucuşlaşacaq.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH ixtisası üzrə I kurs tələbəsi Əliverdiyev Səməd Emin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Yasamal rayonu Z.Adıgözəlov küçəsi ev 21/12 (köhnə Aşağı Dağlı/Vidadi ev 21/12) yaşayan Mustafayeva Zinaida Sergeyevnaya məxsus evin seriya FM 017160 saylı qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


# səs

Son səhifə 30 yanvar


# Həbib Nurmagomedov və Konor Makqreqor arasında yeni razılaşma



MMA döyüşçüləri rusiyalı Həbib Nurmagomedov və irlandiyalı Konor Makqreqor oktyabrda "UFC 229" turnirində baş vermiş dava hadisəsi ilə bağlı Nevada (ABŞ) ştatının rəhbərliyi ilə razılığa gəliblər. TASS agentliyi xəbər verir ki, döyüşçülər çərşənbə günü ştatın Atletika Komissiyasının (NSAC) bu hadisə ilə bağlı dinləmələrin keçiriləcəyi iclasına qatılmayacaqlar. Razılıqla bağlı detallar tam açıqlanmır. Məlumata görə, işə 5 nəfərdən ibarət komissiya baxacaq. Xatırladaq ki, oktyabrın 6-da MMA-ın "UFC 229" kateqoriyası üzrə ən güclü idmançıları hesab edilən rusiyalı Həbib Nurmagomedov və irlandiyalı Konor Makqreqor arasında döyüş keçirilib. Nurmagomedov 4-cü raundda irlandiyalı rəqibini boğucu fəndə salaraq məğlub edib və yüngül çəkidə öz UFC çempionu titulunu qoruyub. Döyüşdən sonra Həbib Nurmagomedovla Makreqorun komandası arasında dava düşüb. Mühafizəçilərin müdaxiləsindən sonra onları bir-birindən ayırmaq mümkün olub. Eyni zamanda, rinqdə də Nurmagomedovun mühafizəçilərindən biri ilə Makqreqor arasında əlbəyaxa dava baş verib.

# "Arsenal" Arsen Vengerə 17,1 milyon funt sterlinq təzminat ödəyib



Londonun "Arsenal" futbol klubu sabiq baş məşqçisi Arsen Vengerin istefaya göndərilməsi ilə əlaqədar fransalı mütəxəssisə 17,1 milyon funt sterlinq məbləğində təzminat ödəyib. London klubu 69 yaşlı fransalı mütəxəssis və onun rəhbərlik etdiyi məşqçilər heyəti ilə müqaviləyə vaxtından əvvəl xitam verildiyi üçün təzminat ödəməli olub. A.Vengerin "Arsenal" ilə keçən ilin əvvəlində imzaladığı müqaviləyə ötən mövsümün sonunda xitam verilib.

O, 1996-cı ildən 2018-ci ilədək "Arsenal" klubunun baş məşqçisi vəzifəsində fəaliyyət göstərib. A.Vengerin rəhbərliyi ilə "Arsenal" üç dəfə İngiltərə Premyer Liqasının və yeddi dəfə ölkə kubokunun qalibi olub.

# Suares yeni müqavilə bağlayıb "Barselona"dan gedəcək



"Barselona"nın yarımmüdafiəçisi Denis Suaresin taleyinə aydınlıq gəlib. Matç.az saytının xarici mətbuata istinadən məlumatına görə, 25 yaşlı futbolçu klubu ilə müqavilə müddətini yeniləyəcək.

Belə ki, tərəflər gələn ilin yayına qədər olan sözləşmənin müddətini daha 1 il uzatmağa razılaşıblar. Ancaq orta sahə oyunçusu "Barsa"da qalmayacaq. O, icarə əsasında "Arsenal"a keçəcək. "Topçular" bunun üçün müəyyən məbləğ ödəyəcək. Həmçinin ingilislər mövsümün sonunda oyunçunu 20-25 milyon avroya birbaşa transfer edə biləcək. Keçidin qarşıdakı iki gün ərzində açıqlanması gözlənilir. Qeyd edək ki, Deniz Suares "Barselona"ya 2016-cı ilin yayında "Vilyarreal"dan keçib.

# Ümumdünya Şahmat Olimpiadası 2022-ci ildə Belarusda keçiriləcək



Minsk 2022-ci ildə Ümumdünya Şahmat Olimpiadasına ev sahibliyi edəcək. Bu barədə "BELTA" dövlət agentliyi məlumat yayıb. Xəbərdə deyilir ki, yanvarın 29-da Belarus ilə Beynəlxalq Şahmat Federasiyası arasında müvafiq müqavilə imzalanıb.

Həmçinin Belarus Prezidenti Aleksandr Lukaşenko və FIDE prezidenti Arkadi Dvorkoviç arasında görüş keçirilib. Tərəflər ölkədə şahmatın inkişafı, həmçinin yarışların hazırlanıb keçirilməsinin müxtəlif aspektlərini müzakirə ediblər. Arkadi Dvorkoviç, həmçinin Belarusun 2020-ci ildə qadınlar, 2021-ci ildə kişilər arasında dünya çempionatına ev sahibliyi edəcəyini xatırladıb. Ümumdünya Şahmat Olimpiadası ilə yanaşı, Minskdə FIDE-nin Baş Assambleyasının və Konqresinin təşkili də planlaşdırılır. Qeyd edək ki, yarışlar 2022-ci ilin avqust ayında Minskdə keçiriləcək və iki həftə davam edəcək. Bu nüfuzlu turnirə 180 ölkədən təxminən 3 min oyunçunun qatılacağı gözlənilir.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**